Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

15
OKTYABR
2019-cu il

№ 183 (4081)

Qiyməti
40 qəpik

www.baki-xeber.com

Həftədə
5 dəfə çıxır

Qəzet
2003-cü ildən
nəşr olunur

# İRƏVANDA HEYKƏLİ QOYULMUŞ FAŞİST NÖKƏRİNƏ ERMƏNİ SEVGİSİNİN KÖKÜ BİLİNDİ - RESPUBLİKAÇILARIN PARTİYA GERBİNDƏ HİTLER SVASTİKASI...

■ səh. 5 ■



## Türk dünyasının nəhəng dövlət və siyasət liderləri Bakıda İlham Əliyevlə birgə...

*Sammitdən əvvəl Əliyev Ərdoğanla görüşdü, Bakı zirvəsinə ilk dəfə Özbəkistan Prezidenti və Macarıstanın Baş naziri də qatıldı, Azərbaycanın Türk Şurasına sədrliyinin əsas məqsədləri bəyan edildi*

■ səh. 3 ■

Azərbaycan-Rusiya münasibətləri dərinləşdikcə Paşinyan sülh danışıqlarını aşkar pozur... ■ səh. 9 ■

Radikal müxaliflər İlham Əliyevin Paşinyanı "Njde kartı" ilə vurmasına da "əks-arqument" tapdılar, lakin uğursuz... ■ səh. 4 ■

Türkiyə əleyhinə Əsəd-kürdlər ittifaqı - Suriya müharibəsində yeni təmayül... ■ səh. 5 ■

Müsavatda "başqan təsdiqləmə" hadisəsinə sıravilərdən etirazlar var ■ səh. 10 ■

Ermənistanın parlament binası dünyanın 10 ən yaraşıqlı binaları sırasında? - Azərbaycana yeni Milli Məclis binası... ■ səh. 6 ■

Alimentdən qaçanların cəzası sərtləşdirilir - həbs edilənlər, axtarışa verilənlər... ■ səh. 12 ■

"Tac Mahal MTK"nın bina sakinləri ilə mübahisəsinin detalları... ■ səh. 14 ■

Bəzi taksi şirkətləri insan həyatı ilə oynayır - "utillik" maşınlar da taksi xidmətinə cəlb olunur ■ səh. 14 ■



## Ankaranın Suriya uğurları və İrəvanı titrədən səbəb - Qarabağda status-kvonu saxlamaq mümkünsüzləşir

■ səh. 8 ■

## Dünya reytinq agentliklərinin hesabatlarında Azərbaycan ən populyar ölkələrdən biri kimi...

■ səh. 11 ■



## Aşqabaddan sonra telefon danışığında Putindən Paşinyana «heykəl və sülh prosesini ləngitməkdə təklənirsən» mesajı...

■ səh. 6 ■

■ səh. 2 ■

### Nazir Vilayət Eyvazov Bakıda Qazaxıstanın Daxili İşlər nazirini qəbul etdi



■ səh. 7 ■

### Faşist Njdenin İrəvandakı heykəlinin sökülməsinə necə nail olmaq olar...



■ səh. 13 ■

### Dünya reytinqində internetin sürətinə görə Azərbaycan geriləyib



■ səh. 12 ■

### Qadağan olunmuş dərman reseptləri sosial şəbəkələri bürüyüb, çıxış yolu...



■ səh. 15 ■

### Qadın zorakılığına qarşı görülən tədbirlərə "səmərəsizlik" ittihamı...



# Bakıda Beynəlxalq Media Konfransı keçirildi

*"Qlobal medianın inkişaf trendləri: Risqlər və imkanlar" mövzusu müzakirə olundu*

**Oktyabrın 14-də "Qloballaşma dövründə medianın inkişaf trendləri: Risqlər və imkanlar" mövzusunda Bakı Beynəlxalq Media Konfransı keçirilib.**

Konfransda Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov, yerli və xarici media nümayəndələri iştirak edib.

Mətbuat Şurasının sədri, deputat Əflatun Amaşov konfransı açaraq son vaxtlar sosial medianın imkanlarının artması ilə media azadlıqlarının da artdığını söyləyib. Əlavə edib ki, bununla yanaşı, mənfi hallar da nəzərdən yayınmamalıdır. Bu isə qarşılıqlı əməkdaşlığımızın dərinləşməsindən asılıdır. İnanırıq ki, bu konfrans bu məsələdə platforma kimi özünü təsdiqləyəcək.

Qlobal Jurnalistlər Şurasının sədri Mehmet Ali Dim çıxış edərək, Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərindən danışıb. O, Azərbaycan və Türkiyə mediasının ortaq tərəflərinin olduğunu vurğulayıb. Sədr Türkiyənin media ilə bağlı çoxlu sayda təşkilatının olduğunu qeyd edib. Əlavə edib ki, bu sahədə tənzimləməyə, yeni bir nəfəsə ehtiyac var. Xarici işlər naziri Mövlud Çavuşoğlunun dəstəyi ilə Qlobal Jurnalistlər Şurası yaradılıb. Türkiyədə fəaliyyət göstərən xarici media orqanları da bizim təşkilatımızın sırasında yer alır. Türk düşməni olmayan jurnalistlər üzvlərimizdir.

Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov bu gün türk dünyasının gözünün Bakıda olduğunu söyləyib. Bildirib ki, Bakıda Türk Şurasının Zirvə Görüşü keçirilir. Bu ildən Türk Şurasına sədrlik Azərbaycana keçir və Türk Şurası ilə bağlı mühüm qərarlar Bakıda qəbul olunacaq.

Əli Həsənov Azərbaycanda müxtəlif xalqların və dinlərin nümayəndələrinin multikultural cəmiyyətdə yaşadıqlarını vurğulayıb. O qeyd edib ki, Azərbaycançılıq ölkəmizdə yaşayan bütün xalqların və dinlərin nümayəndələrinin birliyini, vahid




amal uğrunda mübarizəsini, dövlətin onların yanında olmasını hədəfləyən ideologiyadır. Təəssüf ki, bu gün dünyada haqqa, ədalətə qarşı olan dövlətlər də var. Onların qurduğu rejimlər sülhü təhdid edir, xalqları öz yurd-yuvasından didərgin salır. Bu gün Yaxın Şərqdə, Avropada yaşanan qaçqın-köçkün fəlakətini 20 il əvvəl biz yaşamışıq. Ermənistan Azərbaycan torpaqlarının 20 faizini işğal edib, 1 milyondan çox azərbaycanlını yurd-yuvasından didərgin salıb. Biz o insanlar üçün haqq, ədalət axtarırıq. Beynəlxalq təşkilatların qəbul etdiyi qərarlar isə ikili standartlar nəticəsində həyata keçmir. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsində torpaqların qeyd-şərtsiz azad edilməsi, insanların torpaqlarına qaytarılması tələb edilir. Ancaq 20 ildən çoxdur qətnamələr yerinə yetirilmir. Təəssüf ki, müasir dünyanın ədalətsizlikləri fonunda bu işğal davam edir.

Prezidentin köməkçisi bu konfransın Azərbaycan həqiqətlərini çatdırmaq üçün yeni imkan yaratdığını vurğulayıb. O deyib ki, Azərbaycan bu gün bölgənin və dünyanın ən inkişaf etmiş ölkələrindən biridir. Medianın imkanlarından istifadə edərək həm Türkiyənin, həm Azərbaycanın problemlərini dünyaya çatdırmağa çalışırıq. Diasporumuzu və mediamızı birləşdirməli və haqsızlıqlara qarşı birgə mübarizə aparmalıyıq. Azərbaycan Türkiyənin "Sülh çeşməsi" əməliyyatına dəstək verir. Haqq işində Azərbaycan Türkiyənin yanındadır, Türkiyəni dəstəkləyir.

"Habertürk" televiziyasının əməkdaşı Bulent Aydemir bu gün Türkiyənin şanlı mübarizəsinə qarşı təbliğat aparıldığını söyləyib. O deyib ki, Türkiyənin Suriyada apardığı əməliyyat təhlükəsizliklə bağlıdır, qəti olaraq hansısa ölkənin ərazisini işğal etmək məqsədi daşımır. Türkiyə ordusunun bütün ərazini terrorçulardan təmizləməyə gücü və qüdrəti var. Türkiyənin haqq işinin bütün dünyaya çatdırılmasında medianın köməyi də önəmlidir".



## Yaxşılaşan Rusiya-Azərbaycan münasibətləri Zatulin kimi "kiçik fiqurların" tərpənişləri ilə pozulan deyil...

**AR XİN mətbuat katibi L.Abdullayeva Rusiya Dövlət Dumasının üzvü K.Zatulinin Azərbaycanın işğal olunmuş Xankəndi şəhərində keçirilən "Forum"da qanunsuz iştirakına dair mətbuatın sualını cavablandırıb. Cavabda deyilir:**

"Rusiya Dövlət Dumasının MDB, Avrasiya inteqrasiya məsələləri və Həmvətənlərlə əlaqələr Komitəsinin sədr müavini, qatı ermənipərəst mövqeyi ilə tanınan Konstantin Zatulinin ölkəmizin işğal olunmuş Xankəndi şəhərində keçirilən "Forumda" qanunsuz iştirakı onun Azərbaycan əleyhinə yönəlmiş növbəti təxribatıdır. Məlum olduğu kimi, K.Zatulinin adı Azərbaycanın işğal edilmiş ərazilərinə səfərlər etdiyi üçün müvafiq "qara siyahıya" daxil edilmişdir. K.Zatulinin "forum"da qanunsuz iştirakı və onun Azərbaycan əleyhinə təbliğat xarakteri daşıyan əsassız fikirləri rəsmi Rusiyanın mövqeyi ilə tamamilə uzlaşmır.

Azərbaycan və Rusiya arasında strateji xarakterli tərəfdaşlıq münasibətləri hər iki ölkə prezidentlərinin sıx təmasları ilə intensiv şəkildə inkişaf etməkdədir. Azərbaycan Prezidenti İlham Əliyevin bu yaxınlarda "Valday" beynəlxalq diskussiya klubunda iştirakı və bu çərçivədə keçirilmiş ikitərəfli görüş bunun bariz nümunəsidir.

İki ölkə arasında uğurla inkişaf edən əməkdaşlıq fonunda K.Zatulin kimi şəxslərin fəaliyyəti Azərbaycan və Rusiya münasibətlərinə xələl gətirmək məqsədi güdür. Lakin bu kimi təxribat xarakterli səylərə baxmayaraq, Azərbaycan - Rusiya münasibətləri bundan sonra da uğurla inkişaf edəcək".

# Nazir Vilayət Eyvazov Bakıda Qazaxıstanın Daxili İşlər nazirini qəbul etdi

**DİN-in mətbuat xidmətindən "Bakı-Xəbər"ə verilən məlumata görə, Qazaxıstan Respublikasının Daxili İşlər naziri, polis general-leytenantı Yerlan Turqumbayevin başçılıq etdiyi nümayəndə heyəti ölkəmizə səfəri çərçivəsində oktyabrın 14-də Azərbaycan Respublikasının Daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov tərəfindən qəbul edilib.**

Qonaqları salamlayan nazir V.Eyvazov Daxili İşlər naziri vəzifəsinə təyin olunması münasibətilə polis general-leytenantı Yerlan Turqumbayevi təbrik edərək bu səfərin əməkdaşlığın daha da möhkəmləndirilməsinə xidmət edəcəyinə əminliyini ifadə edib. Xalqlarımızı sıx dostluq, qarşılıqlı inam və hörmət tellərinin bağladığını, dövlətlərimiz arasındakı əlaqələrin hər zaman strateji tərəfdaşlıq xarakteri daşıdığını xatırladan nazir hər iki dövlət başçılarının müəyyənləşdirdikləri strategiyaya uyğun olaraq son illər bütün sahələrdə dinamik inkişafın müşahidə edildiyini, bu kontekstdə Azərbaycan və Qazaxıstan DİN-ləri arasındakı əməkdaşlığın daha da dərinləşdiyini, sahələrarası səmərəli işbirliyinin yeni məzmun kəsb etdiyini diqqətə çatdırıb.



General-polkovnik Vilayət Eyvazov ikitərəfli əlaqələrin, xüsusilə də transmilli mütəşəkkil cinayətkarlıqla mübarizə sahəsində birgə səylərin, qabaqcıl təcrübə və operativ informasiya mübadiləsinin, həmçinin yaradılmış normativ-hüquqi bazanın ilk növbədə xalqlarımızın və dövlətlərimizin mənafelərinə, bölgədə təhlükəsizliyin təmininə xidmət etdiyini vurğulayıb.

Qonaqlara müstəqilliyin ilk illərində üzləşdiyimiz problemlər, torpaqlarımızın işğalı, ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra cəmiyyətin bütün sahələrində, o cümlədən daxili işlər orqanlarında həyata keçirilən islahatlar, qəbul edilmiş yeni qanunlar barədə məlumat verilib, sabitliyin yaradılması və onun dönməzliyinin təmini, cinayətkarlıqla mübarizə və ictimai asayişin qorunması sahəsində görülən işlər barədə qısa məlumat verilib.

Qazaxıstan Respublikasının daxili işlər naziri, polis general-leytenantı Yerlan Turqumbayev səmimi qəbula, yüksək qonaqpərvərliyə və əhatəli məlumata görə azərbaycanlı həmkarına təşəkkürünü bildirib. Sonra Y.Turqumbayev ölkəsindəki mövcud kriminogen durum, cinayətkarlıqla mübarizənin vəziyyəti, ictimai asayişin mühafizəsi, insan hüquq və azadlıqlarının müdafiəsi, DİN sistemində həyata keçirilən islahatlar, əməliyyat-xidməti fəaliyyətin daha da təkmilləşdirilməsi və digər sahələrdə görülən işlər, həyata keçirilən islahatlar barədə ətraflı məlumat verib. O, rəhbərlik etdiyi qurumun Azərbaycanın Daxili İşlər Nazirliyi ilə əməkdaşlığı daha da genişləndirməkdə maraqlı olduğunu və səfərin bu məqsədə xidmət edəcəyinə əminliyini bildirib.

Səmimilik və işgüzarlıq şəraitində keçən görüşdə tərəfləri maraqlandıran bir sıra digər məsələlər barəsində də ətraflı fikir mübadiləsi aparılıb.

Qəbulda ölkəmizin Qazaxıstan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Rəşad Məmmədov iştirak edib.









# Türk dünyasının nəhəng dövlət və siyasət liderləri Bakıda İlham Əliyevlə birgə...

*Sammitdən əvvəl Əliyev Ərdoğanla görüşdü, Bakı zirvəsinə ilk dəfə Özbəkistan Prezidenti və Macarıstanın Baş naziri də qatıldı, Azərbaycanın Türk Şurasına sədrliyinin əsas məqsədləri bəyan edildi*

**Oktyabrın 14-də Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının 14-cü iclası başlayıb. Türk dünyasının məşhur dövlət və siyasət xadimlərinin iştirak etdiyi Sammit mühüm beynəlxalq hadisə kimi diqqəti cəlb edir. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın, sabiq Qazaxıstan prezidenti Nursultan Nazarbayevin iştirakları zirvənin sanbalını qat-qat artırır. Bundan başqa, Sammitdə Qırğızıstan, Özbəkistan və Macarıstan rəhbərləri də iştirak edir.**

Sözsüz ki, Sammitin mərkəzi və aparıcı qüvvəsi Azərbaycan Prezidentidir. Sammitdən əvvəl İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla, Özbəkistan Prezidenti Şevket Mirziyoyevlə, Qırğızıstan Prezidenti Sooronbay Jeenbekovla və Macarıstanın Baş naziri Viktor Orbanla və digərləri ilə ikitərəfli görüşlər keçirib.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan oktyabrın 14-də Dünya Türk Biznes Şurasının (Dünya Türk İş Konseyi - DTİK) Bakı görüşündəki çıxışında deyib ki, Azərbaycan və Türkiyə nə qədər güclü olarsa, xaricdəki soydaşlarımız da bir o qədər güclü olacaq. Ərdoğan bildirib ki, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası (TDƏŞ) bütün türklərin birləşdiyi təşkilatdır. "Özbəkistanın da 10 illiyi tamam olan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv olması ilə daha da güclənəcəyik", - deyə Türkiyə Prezidenti vurğulayıb.

Türk Şurası Xarici İşlər Nazirləri Şurasının 7-ci iclasında çıxış edən Qırğızıstanın Xarici işlər naziri Çingiz Aydarbekov Türk Şurasının BMT-nin Baş Assambleyasında müşahidəçi statusu alması istiqamətində işlərin davam etdirildiyini bildirib. "Türk Şurası beynəlxalq təşkilatlarla əlaqələrini gücləndirir. Təşkilata sədrlik Azərbaycana keçir. Lakin növbəti dövrdə də Qırğızıstan təşkilata üzv dövlətlər arasında əlaqələrin gücləndirilməsi istiqamətində səylərini davam etdirəcək. Ölkələrimiz arasında iqtisadi əlaqələrin inkişafı yenə də diqqət mərkəzində olacaq. Təşkilata üzv ölkələr arasında yenidən biznes forumlar keçirilməlidir", - deyə nazir vurğulayıb.

Azərbaycan Respublikasının Xarici işlər naziri Elmar Məmmədyarov tədbirdə çıxış edərək, Türk Şurasında sədrliyini uğurla başa çatdırması münasibətilə Qırğızıstanı, həmçinin Türk Şurasının yeni üzv dövləti olan Özbəkistanı təbrik edib.

Elmar Məmmədyarov bildirib ki, Azərbaycan Türk Şurasının məqsəd və vəzifələrinin həyata keçirilməsində çox vacib rol oynayan, əməkdaşlığın gücləndirildiyi, qlobal risq və təhdidlərə qarşı səylər və təsirli cavabların verildiyi mühüm, hətta həlledici bir zamanda Türk Şurasının VII Zirvəsinə ev sahibliyi edir. İnstitusional mexanizmləri gücləndirilmək və yeni əməkdaşlıq modellərini yaratmaq yolunda Sammit regional və qlobal hadisələrə toxunmaq və əməkdaşlığın yeni perspektivlərini araşdırmaq üçün bir fürsətdir.

"2009-cu il oktyabrın 3-də Naxçıvan Sazişi imzalanandan bəri Türk Şurası türkdilli dövlətlər arasında hərtərəfli, qarşılıqlı faydalı və bərabərhüquqlu əməkdaşlığı təşviq etmək üçün səylər göstərib. On il ərzində Türk Şurası bölgədə sülhün qorunmasında, üzv dövlətlər arasında qarşılıqlı etimadın möhkəmləndirilməsində, ümumi maraq doğuran bütün sahələrdə, o cümlədən ticarət və investisiya üçün əlverişli şəraitin yaradılmasında, regional və ikitərəfli əməkdaşlığın təşviq edilməsində bir dayaq olduğunu sübut edib. Bu baxımdan, əməkdaşlığın daha da dərinləşdirilməsi üçün geniş imkanların mövcud olduğuna və xüsusi prioritet istiqamətlərdəki səylərimizin regional tərəfdaşlığa yeni təkan verəcəyinə və Türk Şurasına yeni bir hərəkətverici qüvvə olacağına inanırıq", - deyə nazir vurğulayıb.

Qeyd edilib ki, Türk Şurası türkdilli xalqların tarixi irsinin təbliğində və qorunmasında, həmçinin ümumi mədəniyyətimizin, adət-ənənələrimizin, maddi və mənəvi dəyərlərimizin yayılmasında misilsiz rol oynayır. Buna görə də Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı - TÜRKSOY və Türk Mədəniyyəti və İrsi Fondunun Azərbaycanın da fəal iştirak etdiyi mədəni və humanitar sahədəki fəaliyyəti təqdirəlayiqdir. Azərbaycanın sədrliyi dövründə üzv ölkələr arasında iqtisadi əməkdaşlığın daha da inkişaf etdirilməsinə xüsusi diqqət yetiriləcək. Beləliklə, prioritet sahələri əhatə edən, detallı və praktik məqsəd və vəzifələri müəyyənləşdirən Türk Şurasının iqtisadi gündəliyinin hazırlanması fəaliyyətimizin vacib tərkib hissəsidir. Əməkdaşlığımızın iqtisadi ölçüsünün artırılması, dünyada siyasi və iqtisadi qarışıqlıqlara qarşı dayanıqlılığımızı möhkəmləndirəcək və gücləndirəcəkdir. Buna görə də Azərbaycan türk ölkələrinin iqtisadi potensialına böyük diqqət yetirir və qarşılıqlı sərmayələrin artırılmasının və yeni iqtisadi layihələrin araşdırılmasının vacibliyini vurğulayır.

Azərbaycanın Xarici işlər naziri deyib: "Ölkəmiz TDƏŞ-in üzv dövlətləri və müşahidəçiləri ilə güclü siyasi, iqtisadi və humanitar əlaqələrə malikdir. Üzv dövlətlər və müşahidəçilər arasında tarixi İpək Yolunu canlandırmaq və onu yeni infrastruktur layihələri ilə yaxşılaşdırmaq üçün əməkdaşlığın intensivləşdirilməsi iqtisadi əlaqələrimizin əsas dayaqlarından biridir. Azərbaycan Avrasiya bölgəsinin nəqliyyat xəritəsini yenidən tərtib edən infrastruktur investisiyaları həyata keçirir. Yeni bağlılıq təşəbbüsləri təkcə regional inteqrasiyaya töhfə vermir, həm də Türk Şurası üzv dövlətləri və müşahidəçiləri arasındakı əməkdaşlığı artırır. Bakı-Tbilisi-Qars dəmir yolu Transxəzər Şərq-Qərb Orta Dəhliz təşəbbüsünün vacib tərkib hissəsidir və yük daşımalarının həcminin artması nəticəsində ölkələrimizin iqtisadi inkişafına töhfə verəcək. Bundan əlavə, Azərbaycan Türk Şurasına müşahidəçi dövlət qismində Macarıstanla əməkdaşlığın inkişafını dəstəkləyir və 2019-cu il sentyabrın 19-da Budapeştdə Türk Şurasının ofisinin açılmasını alqışlayır. Macarıstan və Türk Şurası üzv dövlətləri arasında əməkdaşlıq geniş sahələrdə uğurla inkişaf edir və biz əminik ki, ofis Türk Şurasının Avropa qurumları ilə əlaqələrinin möhkəmləndirilməsində köməkçi rolunu oynayacaq.

Türk Şurası üzv dövlətləri arasında humanitar sahədə əməkdaşlığın gücləndirilməsinin vacibliyini qeyd etmək lazımdır. Azərbaycan Beynəlxalq İnkişaf Agentliyinin (AIDA) fəaliyyətinin bölgəmizdə humanitar səylər göstərməsində böyük əhəmiyyəti var. Bu baxımdan, 2019-cu il oktyabrın 11-də Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası çərçivəsində üzv dövlətlərin rəsmi inkişaf agentliklərinin, o cümlədən Türk Şurası, BMT-nin Humanitar Məsələləri Koordinasiya Ofisi və BMT İnkişaf Proqramı kimi beynəlxalq təşkilatların iştirakı ilə "Türkdilli Dövlətlərin Rəsmi İnkişaf Agentliklərinin Beynəlxalq Yardım Sisteminə inteqrasiyasının təşviqi: Səmərəli Humanitar Yardım və İnkişaf Yardımı üçün Əməkdaşlıq" Konfransı keçirilib.

Bu tədbir iştirakçı ölkələrə və beynəlxalq təşkilatlara effektiv qlobal və regional yardım üçün əvəzolunmaz təcrübələrini bölüşmək və yeni tərəfdaşlıqlar qurmaq imkanı verib. Şadam ki, 7-ci Sammitin Bəyannaməsi konfransdan bəhs edir və üzv dövlətlərin donor qurumlarının qlobal yardım sisteminə inteqrasiyasını asanlaşdırmaq üçün əhəmiyyətini vurğulayır".

Nazir bildirib ki, Azərbaycan ərazilərinin 20 faizini işğal edən Ermənistanın təcavüzündən əziyyət çəkməkdə davam edir. Nəticədə bir milyondan çox azərbaycanlı öz tarixi torpaqlarında qanlı etnik təmizləmə ilə üzləşib və qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. BMT Təhlükəsizlik Şurasının 822, 853, 874, 884 saylı qətnamələri Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal, qeyd-şərtsiz və tam çıxarılmasını tələb edir. Lakin Ermənistan işğala və təcavüzə son qoyulması barədə BMT TŞ-nin qətnamələrinə və beynəlxalq təşkilatların digər sənədlərinə məhəl qoymamaqda davam edir.

"Azərbaycana qarşı təcavüzü pisləyən, Ermənistanı yuxarıda göstərilən qətnamələri yerinə yetirməyə çağıran prinsipial mövqe nümayiş etdirdiyi üçün hər bir ölkəyə və Türk Şurasına yüksək dəyər verdiyimizi bildirmək istərdim. Bu baxımdan, Türk Şurası üzv dövlətlərinin BMT TŞ-nin qətnamələrinə uyğun olaraq, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinə hörmət əsasında həlli üçün birmənalı dəstəyi çox təqdirəlayiqdir.

Sonda bir daha qeyd etmək istərdim ki, Azərbaycan türkdilli dövlətlərlə əlaqələri həm ikitərəfli, həm də çoxtərəfli formatda daha da gücləndirmək niyyətindədir, Türk Şurası isə türk dünyasının bir araya gəlməsində əhəmiyyətli rol oynamağa davam edəcək. Təşkilatımız Özbəkistanın bu yaxınlarda üzv olması ilə artıq 5 üzv dövlətdən ibarət oldu. Əminəm ki, Türk Şurası Xarici İşlər Nazirləri Şurasının bugünkü iclası qarşılıqlı maraq doğuran bütün sahələrdə əməkdaşlığın gücləndirilməsinə kömək edəcək, eyni zamanda, əldə olunan nailiyyətləri qiymətləndirməyə və ortaq bir baxışla və birləşmiş güclə mövcud problemlərə necə cavab verəcəyimizi düşünməyə imkan yaradacaqdır", - deyə Elmar Məmmədyarov qeyd edib.

Sonda iclasın yekunlarına dair mətbuat konfransı keçirilib.

**Azərbaycan Prezidenti İlham Əliyev Türkmənistanın paytaxtı Aşqabad şəhərində MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə keçirilən iclasında zəngin və təkzibedilməz faktlara əsaslanan cəsarətli çıxışı ilə Ermənistanın Baş nazirinin iddialarını darmadağın etdi.**

# Radikal müxaliflər İlham Əliyevin Paşinyanı "Njde kartı" ilə vurmasına da "əks-arqument" tapdılar, lakin uğursuz...



## *Fərəc Quliyev: "Elçibəydən miras qalan nə varsa, hamısını mənimsədi və heç bir iş ortaya qoymadı"*

Dövlətimizin başçısı Ermənistanda faşistlərin qəhrəmanlaşdırıldığını bildirərək İrəvan hakimiyyətini bu cür yarıtmaz siyasətdən əl çəkməyə, MDB məkanında əməkdaşlığı və sülhü təhdid edən faşizm ideologiyasından imtina etməyə çağırış etdi.

Hətta Rusiya KİV-i belə, İlham Əliyevin məlum çıxışını təqdir etdikləri halda, bizim radikal müxalifət özünəməxsus qərəzi ifadə edir. AXCP sədri Əli Kərimli öz "Facebook" səhifəsində dövlət başçısının fikirlərinə münasibət bildirib və qeyd edib ki, Ermənistanda Njdedən başqa da qaniçənlər var, İlham Əliyev onların da adını çəkməli idi: "Azərbaycanın dövlət başçısı beynəlxalq tədbirdə Ermənistanda faşizmin təbliğindən danışırsa, məntiqlə Qaregin Njde ilə yanaşı, müasir erməni faşist terrorçularının adının əbədiləşdirilməsindən də danışmalı idi. Əlbəttə, Qaregin Njde faşist idi, 2-ci Dünya Müharibəsi zamanı Almaniya kəşfiyyatına xidmət etmişdi və onun adının əbədiləşdirilməsi pislənilməlidir. Lakin Qaragin Njde haqda Azərbaycan rəhbəri danışırsa, mütləq bu faşistin 1919-21-ci illərdə Zəngəzurda azərbaycanlılara qarşı həyata keçirdiyi qətliam və etnik təmizləmə də xatırlanmalı idi. Həmçinin, Azərbaycan və Türkiyəyə qarşı terror törətmiş şəxslərin də Ermənistan rəhbərliyi tərəfindən qəhrəman kimi təqdim edilməsinə, bu terrorçulara da abidə qoyulmasına etiraz bildirilməli idi. Terrorçuluqla ordu sıralarında savaşmaq çox fərqlidir. Terrorçular, heç bir halda, qəhrəman kimi təqdim edilməli deyil. Ancaq təəssüf ki, İlham Əliyev bu mövzuların heç birinə toxunmadı".

Göründüyü kimi, radikal dairələr hətta Prezidentin ermənilərə verdiyi sərt cavabı belə həzm etmək istəmirlər. Azərbaycan dövləti hər zamna Əli Kərimlinin adını çəkdiyi terrorçuları lənətləyib. Aşğabadda isə İlham Əliyev yalnız Njdenin adını çəkməklə mövzuya uyğun olan mövqeyini ortaya qoyub. Çünki həmin görüşdə söhbət faşizm üzərində qələbənin 75 illiyi ilə bağlı aparılıb. Radikalların bu əsassız arqumentini necə dəyərləndirmək olar?

*"...öz ağalarına yazdıqları donoslarda onlar da digər erməni terrorçularını ifşa etsinlər"*

Millət vəkili Fərəc Quliyev "Bakı-Xəbər"ə açıqlamasında radikal dairələrin Prezidentin çıxışına belə qərəzli münasibət bəsləməsinə təəssüf etdiyini bildirdi: "İlham Əliyev orada 10 nəfərin adını çəksəydi belə, Əli Kərimli yazacaqdı ki, niyə 15-nin adını çəkməyib? Təbii ki, ermənilərin terrorçuları, faşistləri yalnız Njdeylə bitmir. Ancaq həmin görüşdə konkret olaraq söhbət Böyük Vətən Müharibəsindən gedirdi. İlham Əliyev də, dövlət başçısı kimi, mövzuya uyğun danışmalıdır. Ermənistanı həmin müharibədəki mövqeyinə görə, demək olar ki, ifşa etdi. Xatirəsi Ermənistanda əbədiləşdirilən bir faşistlə bağlı faktlarla danışırdı. Hətta çıxışı ilə Paşinyanın da faşist mahiyyətini ifşa etdi. Nəzərə çatdırdı ki, Paşinyandan əvvəlki hakimiyyət həmin heykəli ucaldıbsa, niyə indiki rəhbərlik onu saxlayır?

Bu qədər bəsit yanaşma lazım deyil. Söhbət düşmənə qarşı mübarizədə istifadə olunan hansısa detaldan gedir. Həmin tədbirdə Prezident bunu uğurla bacardı. İlham Əliyev niyə bu mövzuda kiminsə xoşuna gəlməyə çalışmalıdır? Çox sərt və dəqiq şəkildə arqumentlərini ortaya qoydu. Yaxşı, çığallıq edən persona özü nə işlə məşğuldur? Elçibəydən miras qalan nə varsa, hamısını mənimsədi və heç bir iş ortaya qoymadı. Barı öz ağalarına yazdıqları donoslarda onlar da digər erməni terrorçularını ifşa etsinlər. Və ya Cənubi Azərbaycanda hüquqları tapdanan soydaşlarımızla bağlı dünyaya çağırış etsinlər. Buna kim mane olur? Ancaq ölkənin daxilində yalan donos yazmaqla məşğuldurlar. Bu, milli məsələdir, İlham Əliyev beynəlxalq tribunada ermənini ifşa edirsə, biz onu təqdir etməliyik, çığallıq edib, pis nəsə axtarmamalıyıq. Bir daha sübut olunur ki, bəzi adamlar siyasi mübarizə ilə deyil, nifaq toxumu səpməklə məşğul olurlar. Radikalların yanaşmasını bəsit və əsassız sayıram".

***Məhəmmədəli QƏRİBLİ***

**AXCP sədri Əli Kərimlinin yaxın adamlarından birinin - partiya funksioneri, daha konkret desək, onun müşaviri Məmməd İbrahimin sosial şəbəkələrdə növbəti səs yazısı yayılıb.**

# Kərimlinin müşaviri "sirləri açır" - Məmməd İbrahim: "20-ci sahəyə mitinqə gəlmədilər, Lökbatana kim gələr..."



## *Elşən Manafov: "Əli Kərimlinin müşavirinin açıqlamasından bəlli oldu ki, biabır olacaqlarını bildikləri üçün mitinqdən imtina ediblər"*

Qeyd edək ki, Məmməd İbrahim Əziz oğlu 1966-cı ildə Yevlax rayonunda anadan olub, AXCP sədrinin müşaviri, Nərimanov şöbəsinin koordinatorudur. Partiya daxilində xüsusi aktiv və tanınmış şəxslərdəndir. M.İbrahim 2015-ci il sentyabrın 30-da xuliqanlıq ittihamı ilə 3 il müddətinə həbs olunub.

Yeni audioyazıdan belə məlum olur ki, AXCP Lökbatana icazəli mitinqə adam çıxara bilməyəcəyini bildiyindən, orada aksiya keçirməkdən imtina edib: "Bizim qərarımız var, 4-cü gün piket keçirəcəyik - ya İcra Hakimiyyətinin, ya da Prezident Aparatının qabağında. Gələn gəlsin, qorxan qorxsun, bizim işimiz budur. Ona görə deyirəm ki, köhnədən gələn, təzədən gələn bizim bu işdə təcrübəmiz var. Dünən gələn adam bilmir bu nə deməkdir? Nə üçündür? Biz bilmişik haralara gedəndə nədir. Qurtarın, heç kim gəlməyəcək Lökbatana. 20-ci sahəyə gəlmirdilər, ora biz 2 min, 3 min adam yığırdıq. 2 min, 3 min adam gəlmişdi 20-ci sahəyə. 20-ci sahədən uzaqdır Lökbatan. 20-ci sahəyə 2 min adam gəldi, biabır olduq, əl çək bu Lökbatandan. Mikayıl bəy, əl çək bu Lökbatandan".

Bu lent yazısından AXCP və "Milli Şura" yetkililərinin niyə Lökbatan meydanına görə cığallıq etməsinin səbəbini aydın şəkildə ortaya qoyur. Elektorat Ə.Kərimliyə görə fədakarlıq etmək istəmir. Biabır olduqlarını görən AXCP funksionerləri isə mitinq keçirməkdən daha çox məkanla bağlı cığallıq etməyə üstünlük verirlər. Çünki insanlar gəlmədiyi üçün biabır olurlar.

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən politoloq Elşən Manafovun sözlərinə görə, bu bir daha onu sübut etdi ki, Ə.Kərimli tərəfdarlarını mitinqə çıxara bilmir: "Daha dəqiq desək, mitinqə gələn yoxdur. Mitinqə gələn olmadığına görə AXCP biabır olur. O üzdən, bir bəhanə uydurub aksiyadan imtina edirlər. Ə.Kərimlinin müşavirinin səsləndirdiyi fikirlər bunu bir daha sübut edir. Məlum olduğu kimi, "Milli Şura" mitinq keçirməklə bağlı müraciət etmişdi. Bakı Şəhər İcra Hakimiyyəti Qaradağ rayonunun Lökbatan qəsəbəsində yer ayırası oldu. Mitinqin keçirilməsi üçün ayrılan sahə bütün standartlara cavab verirdi. Nəzərə almaq lazımdır ki, mitinq iştirakçılarının təhlükəsizliyinə görə məhz iqtidar məsuliyyət daşıyır. O baxımdan Lökbatan qəsəbəsində mitinq üçün ayrılan yer daha münasib idi. AXCP-nin sözügedən yerdə mitinq keçirməkdən imtina etməsi bir daha sübut etdi ki, radikalların aksiyasına gələn yoxdur. M.İbrahimin açıqlamasından bəlli oldu ki, biabır olacaqlarını bildikləri üçün mitinqdən imtina ediblər. Bu həm də onu göstərir ki, narazı elektoratın kiçik faizi belə, radikalların müraciətinə qoşulmur. Əgər həqiqətən də onların tərəfdarları olsaydı, o zaman "Milli Şura" istənilən yerdə icazəli aksiya keçirərdi.

*"Bu həm də onu göstərir ki, narazı elektoratın kiçik faizi belə, radikalların müraciətinə qoşulmur"*

Ə.Kərimli gözəl anlayır ki, onun arxasınca gələn yoxdur. Ona görə də bu rüsvayçılığı ört-basdır etməkdən ötrü mitinq üçün tövsiyə olunan yerdən imtina edirlər. Həm onlarda sosial bazaya inam yoxdur, həm də mitinqin keçirilməsi üçün lazımi təşkilatçılıq bacarıqları yoxdur. Aydın mübarizə proqramları yoxdur. İqtidarı, sadəcə, tənqid etməklə iş düzəlmir. Narazı elektoratın kiçik bir faizi belə, Əli Kərimlini müdafiə etmir. Ona görə də mitinqlə bağlı cığal metodlara əl atırlar".

***Vidadi ORDAHALLI***

**Ermənistanın faşizm, nasizm ideologiyasına açıq sahib çıxması və bu təhlükəli ideologiyanı dövlət siyasətinə çevirməsi, faşizm əlaltılarının heykəlləşdirilməsi məsələsini Azərbaycan Prezidenti İlham Əliyev MDB Dövlət Başçıları Şurasının Aşqabadda keçirilən zirvə görüşündə gündəmə gətirdikdən sonra Ermənistanın iç üzü bir daha dünyaya bəlli oldu.**

# İrəvanda heykəli qoyulmuş faşist nökərinə erməni sevgisinin kökü bilindi - Respublikaçıların partiya gerbində Hitler svastikası...



## *Qasım Hacıyev: "Ermənistan faşizm simvolikasını Respublikaçılar Partiyasının gerbində əks etdirməklə faşizm ideologiyasına sahib olduğunu açıq şəkildə ortaya qoyur"*

Məlum olduğu kimi, zirvə görüşündə Prezident İlham Əliyev II Dünya Müharibəsində faşizm üzərində qələbə çalınmasında Azərbaycanın müstəsna rolunu vurğuladı, eyni zamanda, Ermənistanın faşist cəlladlarının xatirəsini əbədiləşdirdiyini, hətta bunu dövlət siyasətinə çevirdiyini, dünya birliyinin buna göz yummalı olmadığını qeyd etdi. Prezident İlham Əliyevin bu çağırışının dünyanın mütərəqqi dövlətlərinin hər biri tərəfinən müsbət qarşılandığı şübhəsizdir. Ekspertlər qeyd edirlər ki, Prezident İlham Əliyevin ortaya qoyduğu faktlar çox ciddi faktlardır və bu da Ermənistanın hansı yolda olduğunun bütün dünyaya çatdırılmasıdır.

Ölkə başçımızın məlum çıxışından sonra Ermənistanın faşizmi, nasizmi dövlət siyasətinə çevirdiyinin sübutu olan digər faktlar da meydana çıxmağa başlayıb. Belə ki, Ermənistanın Respublikaçılar Partiyasının gerbinin faşist simvolikasını əks etdirdiyi meydana çıxıb. Bəli, bu bir daha Ermənistanın faşizmin çiçəklənməsinə açıq dəstək verməsinin nümunəsidir.

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Qafqazşünaslıq İnstitutunun ermənişünaslıq şöbəsinin müdiri, professor Qasım Hacıyev "Bakı-Xəbər"ə bildirdi ki, Ermənistanı bürüyən faşizm təsiri Azərbaycan Respublikası Prezidentinin məlum çıxışından sonra artıq bütün dünyadan aydın şəkildə görünür. Q.Hacıyevin sözlərinə görə, Azərbaycan Prezidentinin Ermənistanda faşizmin yayıldığını, burada faşistlərlə əlbir işləmiş insanlıq düşmənlərinə heykəl qoyulduğunu bəyan etməsi çox mətləbə aydınlıq gətirdi. "Həm indiki hakimiyyət dövründə, həm də Sarkisyan rejiminin hökumət başında olduğu illərdə Ermənistanda faşizmə, nasizmə açıq dəstək verilib. Ermənistan faşizm simvolikasını Respublikaçılar Partiyasının gerbində əks etdirməklə faşizm ideologiyasına sahib olduğunu açıq şəkildə ortaya qoyur. Sarkisyan dövründə də faşizm, nasizm simvolikasına yer verilib, faşist əlaltılarına heykəllər qoyulub, onlar "qəhrəman" kimi təqdim edilib. Azərbaycan Prezidenti İlham Əliyevin MDB Dövlət Başçıları Şurasının Aşqabadda keçirilən zirvə görüşündəki çıxışı bir daha Ermənistan hökumətinin iç üzünü açdı və onun faşizm siyasəti yürütdüyünü meydana çıxardı. Ermənistanın faşizm ideologiyasını dövlət siyasətinə çevirməsi, həbelə nasist damğalarından, simvolikalardan partiyaların, təşkilatların gerbdə istifadə etməsi bir reallıqdır. Bilirsiniz, faşizmlə ermənizm arasında heç bir fərqlilik yoxdur, "Daşnaksütyun" və digər erməni partiya və təşkilatları yarandıqları gündən faşizmin yolunu gediblər. Bu gün də o təhlükəli yolu davam etdirirlər. Bir dövlət ki, humanist siyasətin nə olduğunu bilmir, o dövlətin nasizmi, faşizmi dövlət siyasətinə çevirməsi təbiidir. Son illər Ermənistanda faşizmə maraq ciddi şəkildə artıb və hesab edirəm ki, bununla bağlı dünya birliyi ölçü götürməlidir.

*"Həm indiki hakimiyyət dövründə, həm də Sarkisyan rejiminin hökumət başında olduğu illərdə Ermənistanda faşizmə, nasizmə açıq dəstək verilib"*

Yeri gəlmişkən deyim ki, faşizmin yarandığı İtaliyada, çiçəkləndiyi Almaniyada ondan çoxdan imtina edilib. Hətta mən Berlində olarkən orada dövlət xadimləri ilə bağlı olan muzeyə baş çəkdim. Bu muzeydə qədim dövrdən indiyə qədər Almaniyada hakimiyyətdə olmuş bütün dövlət xadimlərinin büstləri, əşyaları olsa da, orada Hitlerin yalnız karikaturasını görə bildim. Ermənistanın hitlerçiləri, faşistləri qəhrəmanlaşdırması çox zərərli tendensiyadır və bu onun yalnız zərərinə işləyəcək bir məsələdir"-deyə Q.Hacıyev vurğuladı.

***İradə SARIYEVA***

**Türkiyənin başlatdığı "Barış pınarı" əməliyyatından sonra müttəfiqləri ABŞ tərəfindən dəstəklənməyən kürd YPG/PYD qüvvələri Bəşər Əsəd rejimi ilə anlaşıblar. Dünya mətbuatının verdiyi məlumata görə, anlaşma Suriyadakı Hmeymim aviabazasında əldə edilib.**

# Türkiyə əleyhinə Əsəd-kürdlər ittifaqı - Suriya müharibəsində yeni təmayül...




## *Zərdüşt Əlizadə: "Bəşər Əsədin rəhbərlik etdiyi Suriya ordusunun Türkiyə qoşunlarına qarşı vuruşacağını iddia edənlər fərziyə danışırlar"*

Suriya rejiminin və kürdlərin "Suriya Demokratik Qüvvələri" koalisiyasının nümayəndələri arasında əldə edilmiş anlaşmadan sonra Əsəd ordusu ölkənin şimalına, Türkiyə ordusu və onun müttəfiqləri olan "Azad Suriya Ordusu" qruplaşması ilə kürdlər arasında döyüşlərin getdiyi ərazilərə doğru irəliləyib.

Kürdlərin nümayəndələri anlaşmanın "ağrılı kompromislər" hesabına əldə edildiyini açıqlayıblar. Anlaşmaya görə, Suriya ordusu Türkiyə ilə sərhədi nəzarətə götürməlidir, kürdlərin gələcək statusuna dair danışıqlar isə sonraya saxlanılır.

Son xəbərlərə görə, Suriya rejimi qüvvələri əvvəl kürd birləşmələrinin nəzarətində olan Tabka şəhərinə daxil olublar. Şəhər Əsəd rejimi qüvvələrinin nəzarətinə keçib. Bölgəyə Türkiyə ordusunun irəliləməsini dayandırmaq üçün əlavə qüvvələr göndərilir, amma hələlik Türkiyə və Suriya ordusu arasında toqquşma qeydə alınmayıb.

Türkiyə ilə Suriya ordusu arasında müharibənin olacağı ehtimalı nə dərəcədə realdır. Belə bir hal baş verərsə, bunun nə kimi sonluğu ola bilər?

Politoloq Zərdüşt Əlizadə "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Bəşər Əsədin rəhbərlik etdiyi Surya ordusunun Türkiyə qoşunlarına qarşı vuruşacağını iddia edənlər fərziyə danışırlar: "Mən bu fikirləri tam əsassız sayıram. Suriya qoşunlarının kürdlərlə birləşib Türkiyə ordusuna qarşı vuruşması heç vaxt baş verməyəcək. Çünki Bəşər Əsədin məqsədi Suriyanı vahid dövlət kimi qorumaqdır. Qərbin silahlandırdığı kürd silahlı birləşmələri, əslində, ən böyük təhlükəni elə Suriyanın vahidliyinə yaradırdı. Əsəd çox planlı şəkildə gözləyir ki, türk ordusu onun öz ərazilərində silahlı kürdlərin başını əzsin. Bəyanatlara, etirazlara gəldikdə isə, bunlar olmalıdır. Çünki Türkiyə dövlətinin ordusu Suriyanın rəsmi icazəsi olmadan onun ərazisinə daxil olub. Nə deməlidir? Deməlidir ki, eşq olsun? Ərdoğan Bəşər Əsədin devrilməsinə çalışan əsas dövlət başçılarından biri idi. Suriya münaqişəsinin ilkin mərhələsində Ərdoğan Əsədə qarşı olan bütün müxaliflərə lazımi dəstəyi verirdi. İndi isə vəziyyət başqa cürdür. Suriyanın vahid dövlət kimi mövcudluğu sual altındadır. Suriya ərazisində, Türkiyə ilə sərhəddə Ankara üçün böyük təhlükə sayıla biləcək bir kürd ordusu yaradılıb. Bütün bunlar ABŞ və Qərbin dəstəyilə baş verib. 30 minlik belə bir ordunun mövcudluğuna Türkiyə heç vaxt razı olmaz. Nə etməlidir?

*"Bu mövqe Bəşər Əsədin məqsədləri ilə üst-üstə düşürsə, niyə onlar arasında müharibə olmalıdır?"*

Deməlidir ki, beynəlxalq hüquqa görə Suriya dövlətinin ərazi bütövlüyünü tanıyıram, amma bu təhlükədən yaxa qurtarmağı öz haqqım sayıram. Bu mövqe Bəşər Əsədin məqsədləri ilə üst-üstə düşürsə, niyə onlar arasında müharibə olmalıdır? Kürdlər gedib Əsədin qabağında diz çöküb, yalvarsalar, bəlkə onlara nicat ola. Bunun üçün də bütün siyasi iddialarından əl çəkməlidirlər. Onda sadə vətəndaşlar kimi, onların yaşayışına zəmanət verilər".

***Məhəmmədəli QƏRİBLİ***

**MDB** **Dövlət Başçıları Şurasının Aşqabadda keçirilən sammitindən bir gün sonra Rusiya Prezidenti Vladimir Putin Ermənistanın Baş naziri Nikol Paşinyana telefonla zəng edib. Tərəflər arasında müzakirə zamanı bir sıra məsələlərə toxunulub. Telefon danışığının məzmunu barədə geniş məlumat yoxdur.**

# Aşqabaddan sonra telefon danışığında Putindən Paşinyana "heykəl və sülh prosesini ləngitməkdə təklənirsən" mesajı...

## *Elman Nəsirov: "Bu kontekstdə Putinin Paşinyanı xəbərdar etməsi ehtimalı böyükdür"*




Ermənistan hökuməti dövlət başçılarının danışığı barədə ümumi məlumat yayıb. Bildirilib ki, tərəflər telefon danışığında Suriyanın şimalındakı vəziyyəti müzakirə edib, regional əhəmiyyətli bir sıra mövzulara toxunublar. Nikol Paşinyan "Facebook" səhifəsində yazıb ki, o, Aşqabadda MDB Dövlət Başçısları Şurasının iclasında Rusiya Prezidenti Vladimir Putinə Suriyanın erməni icmasının təhlükəsizliyi ilə bağlı müraciət edib: "Rusiya Federasiyasının Prezidentinə tez reaksiya verdiyinə görə minnətdaram".

Ancaq müəyyən ekspertlərin sözügedən tdelefon danışığında müzakirə edilən məsələlər barədə mülahizələri fərqlidir. Belə ehtimal edilir ki, Ermənistanın Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində sərgilədiyi pozucu mövqe, səsləndirdiyi reallıqdan uzaq yanaşmalar sülh danışıqları prosesini ləngidir. O cümlədən, faşist Njdenin heykəlinin İrəvanda hələ də qalması MDB dövlət başçıları tərəfindən qəbul edilmir. Güman olunur ki, Putin sözügedən məsələlərlə bağlı Paşinyanın MDB dövlətləri arasında təkləndiyini onun diqqətinə çatdırıb.

O baxımdan sözügedən ehtimalları ekspertlər necə dəyərləndirirlər?

Məsələyə münasibət bildirən millət vəkili Elman Nəsirov sözügedən versiyanı istisna etmədi. Onun fikrincə, bu kontekstdə Putinin Paşinyanı xəbərdar etməsi ehtimalı böyükdür: "O baxımdan, prinsip etibarilə, bu ehtimalları reallıq kimi qəbul etmək olar. Çünki məhz Aşqabaddakı görüşdən bir gün sonra bu telefon danışığının reallaşması təsadüfə oxşamır. Ermənistanda faşizmin qəhrəmanlaşdırılması, onların xatirəsinin əbədiləşdirilməsi kimi məsələlərə yenidən baxılması MDB dövlətlərini narahat edir. O baxımdan bu məsələlərin həlli ilə bağlı mövqe ortaya qoyula bilər. Rusiya Prezidentinin bu məsələdə prinsipial mövqe ortaya qoyması istisna deyil. Çünki İkinci Dünya Müharibəsində ən böyük itkilərə rus xalqı məruz qalıb. O cümlədən, digər ittifaq ölkələri də bir sıra itkilərlə üzləşib. Azərbaycan o dövrdə müharibəyə 600 min nəfərdən çox əsgər göndərib və onların yarıdan çoxu geri qayıtmayıb. Azərbaycan nefti qələbənin əldə edilməsində misilsiz rol oynayıb. Fransada marşal Peten almanlara xidmət göstərib, amma heç bir halda Fransa dövləti ona heykəl qoymayıb.

*"Paşinyanın Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsini yubadan pozucu xarakterli açıqlamaları MDB dövlətlərini qane etmir"*

O zaman nəyə görə Ermənistan dövləti faşistlərin əlaltısı olan Njdeyə heykəl qoyur? Bununla yanaşı, Paşinyanın Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsini yubadan pozucu xarakterli açıqlamaları MDB dövlətlərini qane etmir. Paşinyan açıq-aşkar işğala haqq qazandırır və işğal olunmuş əraziləri Ermənistana birləşdirmək istəyir. O baxımdan ehtimal edilir ki, məhz bu məsələlər telefon danışığında müzakirə mövzusu olub. MDB dövlətlərinin sözügedən məsələlərdə mövqeyi Paşinyanın diqqətinə çatdırılıb".

***Vidadi ORDAHALLI***

**Ermənistan mətbuatının yazdığına görə, "The İndependent" təşkilatının dünyanın ən gözəl parlament binalarının müəyyən edilməsi ilə bağlı keçirdiyi rəy sorğusunda bu ölkənin parlament binası da yer alıb. Macarıstan, Rumınya, Trinidad i toboqo, Anqola, ABŞ, Hindistan, Kanada, Butan, Seyşeli kimi dövlətlərin parlament binalarının da daxil olduğu 10-luqda Ermənistanın parlament binasının 4-cü yerdə qərarlaşması həqiqətən də təəccüb doğurur.**

# Ermənistanın parlament binası dünyanın 10 ən yaraşıqlı binaları sırasında? - Azərbaycana yeni Milli Məclis binası...

## *Faiq Ələkbərli: "Ermənistan parlamenti binasının həmin reytinqdə yer alması, birmənalı olaraq, siyasi mahiyyət daşıyır"*



Qeyd edilənə görə, 193 ölkənin parlament binası ilə bağlı açıqlanan müvafiq reytinqdə ancaq bu on dövlətin adı yer alıb.

Öz möhtəşəmliyi ilə diqqəti çəkən Azərbaycan parlamentinin binasının bu reytinqə düşməməsi təəssüf doğurur. Azərbaycan parlamentinin binasının memarlıq baxımından diqqəti cəlb etməsi yeni ideyanın meydana çıxmasına səbəb olur. Dünyada yalnız parlament binaları daxilində qəbul edilən qərarlar deyil, həm də bu binaların memarlıq quruluşu önəmli sayılırmış. Azərbaycanda parlament üçün yeni binanın inşasına, memarlıq cəhətdən daha təkmil bir binanın meydana gəlməsinə ehtiyac duyulur.

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Fəlsəfə İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Faiq Ələkbərli "Bakı-Xəbər"ə bildirdi ki, Ermənistan parlamenti binasının sözügedən təşkilatın yaydığı reytinq cədvəlində 4-cü yeri tutması qeyri-obyektiv yanaşmanın təzahürüdür. F.Ələkbərlinin sözlərinə görə, ümumiyyətlə, Ermənistan parlamentinin binası elə də gözəgəlimli deyil, onu bir qədər gözəgəlimli edən nə isə varsa, o da bu binanın qırmızı daşlardan tikilməsidir. F.Ələkbərli hesab edir ki, dünyanın bir sıra ölkələrinin parlament binaları Ermənistan parlamenti binasından arxitektura baxımından min dəfə gözəldir. Ermənistan parlamenti binasının qanla suvarıldığını deyən F.Ələkbərlinin dediyinə görə, bu ölkənin parlament binasının həmin onluğa daxil edilməsində xarici erməni lobbisinin böyük rolu var. "Hansısa bir rəy sorğu təşkilatının belə bir reytinq tərtib etməsi və orada Ermənistan parlamenti binasının öz gözəlliyinə görə 4-cü yerdə qərarlaşdığını elan etməsi özündə heç bir həqiqəti ehtiva edə bilməz. Hesab edirəm ki, Ermənistan parlamenti binasının gözəllik baxımından reytinqdə yüksək yer tutması obyektiv yanaşma deyil, bu, siyasi yanaşmanın təzahürüdür. Dünyada məşhur olan Böyük Britaniyanın, Fransanın, Türkiyənin parlament binaları bu onluğa daxil edilsəydi, daha obyektiv yanaşma olardı. Ancaq Ermənistan parlamenti binasının belə bir siyahıya daxil edilməsi yenə dünyanın ermənipərəst qüvvələrinin, erməni lobbisinin Ermənistanı önə çıxarmağa və onu gündəmdə saxlamağa xidmət edir. Bir çox Qərb dövlətinin, Azərbaycan da daxil olmaqla, türk və müsəlman ölkələrinə münasibəti də, Ermənistana bəslədikləri sevgiləri də bəllidir. Ermənistan parlamenti binasının həmin reytinqdə yer alması, birmənalı olaraq, siyasi mahiyyət daşıyır" - deyə bildirən F.Ələkbərli hesab edir ki, müasir Azərbaycan parlamenti binasının bu reytinqdə yer tutmamasının da siyasi səbəbləri yox deyil.

*"Milli Məclis üçün daha fərqli memarlıq quruluşuna malik yeni binanın inşa edilməsi arzuedilləndir"*

Bununla belə, o hesab edir ki, Azərbaycan parlamenti üçün milli memarlıq üslubuna uyğun yeni binanın inşa edilməsi də vacibdir. "Sözün açığı, Azərbaycan parlamenti binasının görkəmi indiki baxımdan da diqqətçəkəndir. Ancaq Milli Məclis üçün daha fərqli memarlıq quruluşuna malik yeni binanın inşa edilməsi arzuedilləndir. Azərbaycan parlamenti üçün də yeni milli memarlıq üslubunda gözəl bir binanın inşa edilməsi vacibdir. Çünki, gördüyümüz kimi, müasir dünya binaların estetik gözəlliyinə də xüsusi önəm verir" - deyə F.Ələkbərli vurğuladı.

***İradə SARIYEVA***

# Faşist Njdenin İrəvandakı heykəlinin sökülməsinə necə nail olmaq olar...

**Məlum olduğu kimi, Njdenin heykəli ilə bağlı məsələ yenidən müzakirə obyektinə çevrilib. Prezident İlham Əliyevin oktyabrın 11-də Aşqabadda keçirilən MDB Dövlət Başçıları Şurasının iclasında Ermənistanda faşist cəlladı və satqın, Qaregin Njde ləqəbi ilə alman faşistlərinə xidmət etmiş Qaregin Ter-Arutyunyana heykəl qoyulmasını sərt şəkildə pisləməsi bu mövzunu bir daha aktual edib.**



## *Məhəmməd Əsədullazadə: "O heykəlin Ermənistanda sökülməsi üçün, ilk növbədə, Moskva hərəkətə keçməlidir"*

Ermənistan rəhbərliyinin bundan sonra hansı addımları atacağı, Rusiyanın onlara qarşı döyüşmüş bir cəllada qoyulan heykəllə bağlı sonrakı davranışları müzakirə predmetidir.

Yüksək səviyyədə ekspertlər və Rusiya dövlətçiliyinə xidmət edən şəxslər erməni cəlladın nəinki heykəlinin qoyulmasını, onun hələ də saxlanmasını ölkələrinə qarşı təhdid kimi qələmə verirlər. Eyni zamanda, bunu təhqir hesab edirlər. Bu, ümumilikdə, İkinci Dünya Müharibəsi zamanı faşistlərə qarşı vuruşmuş bütün keçmiş SSRİ respublikalarına hörmətsizlikdir. Hazırda Paşinyan bu mövzunu daxildə populist üsullarla öz xeyrinə istifadə etməyə çalışır. Ancaq, ümumilikdə, bu cür fəaliyyət onun əleyhinədir. Ən azından, MDB dövlətlərinin maraqlarına ziddir. Ona görə də Ermənistan hakimiyyəti Njdenin heykəlini sökməlidir. Maraqlıdır, sözügedən heykəlin Ermənistanda sökülməsinə necə nail olmaq olar? Njdenin heykəli sökülsə, bu, ölkədəki daxili vəziyyətə necə təsir edəcək?

Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən politoloq Məhəmməd Əsədullazadə buna bir neçə aspektdən yanaşdı: "Ermənistan əsasən öz dövlət ideologiyasında faşizm və rasizm ideyalarından istifadə edir. Məhz bunun əyani nümunəsi İrəvanda Qaregin Njdeyə qoyulan abidədir. O heykəlin Ermənistanda sökülməsi üçün, ilk növbədə, Moskva hərəkətə keçməlidir. Çünki SSRİ-yə qarşı xain plan həyata keçirən şəxsin İrəvanda heykəlinin olması Rusiyanın da maraqlarına ziddir. Bundan əlavə, beynəlxaq məhkəməyə müraciət edib insanlıq əleyhinə cinayət törədən bir şəxsin adının əbədiləşdirilməsinin düzgün olmadığını qaldırmaq olar. İrqi ayrıseçkiliyi təbliğ etdiyi üçün beynəlxalq birlik buna qarşı hərəkətə keçməlidir. Azərbaycan Prezidenti MDB sammitində bu məsələyə açıq şəkildə aydınlıq gətirdi. Paşinyan demokratik bir liderdisə, bu heykəli aradan götürməlidir. Bu heykəl götürülmürsə, demək, Ermənistan faşizm ideyalarına sadiqdir və terroru dəstəkləyir. Bu heykəlin aradan götürülməsi, əlbəttə ki, Ermənistanın müəyyən terroru dəstəkləyən qüvvələrinin narahatlığına səbəb olar. Paşinyana qarşı bundan istifadə edib, etirazları qızışdıra bilərlər.

*"Paşinyana qarşı bundan istifadə edib, etirazları qızışdıra bilərlər"*

Hesab edirəm ki, Avropa qurumları bu məsələ ilə bağlı ciddi işlər görməli və faşizmin təbliğatına yönələn bir heykəlin götürülməsinə çalışmalıdırlar. Azərbaycan da Avropa qurumları ilə bu istiqamətdə işləməlidir. Çünki Avropada faşizm ləğv edildiyindən, bu heykələ qarşı hərəkətə keçəcək. Ona görə ki, bu, insanlıq əleyhinə cinayətin bariz nümunəsidir".

**_Vidadi ORDAHALLI_**

# İsrail saxta "erməni genosidi" oyunlarına uydu - bu razılıq İsrailin Azərbaycanda nüfuzunu zədələyəcək...

**Ermənilər İsraildə qondarma "erməni soyqırımı" ilə bağlı abidə ucaldacaq. Düşmən ölkə mətbuatının yazdığına görə, bu barədə "Ermənistan-İsrail" İctimai Forumunun həmsədri Aleksandr Zinker məlumat verib.**



## *"Məlum qərar İsrailin Azərbaycandakı nüfuzuna təsirsiz ötüşməyəcək"*

A.Zinkerin sözlərinə görə, İsrail tərəfi belə bir abidənin inşası üçün icazə versə də, abidə ermənilərin öz vəsaiti hesabına ucaldılacaq. Artıq abidənin inşası üçün gərəkli olan vəsaitin əldə edilməsi ilə bağlı ianə kampaniyasının başladıldığı vurğulanır. Abidənin İsrailin Petah Tikva şəhərində ucaldılması planlaşdırılır. Petah Tikva şəhərinin yeni meri buna razılıq verib.

A.Zinker onu da qeyd edib ki, abidə Ermənistanda hazırlanacaq: "İcazə alınıb, müvafiq maket hazırlanıb və artıq "erməni soyqırımı" abidəsinin yaradılması və açılışı üçün vəsait toplamağa başlamışıq. İsrailin Petah Tikva şəhərində bələdiyyə başçısı əvəzləndi. Problemlərin olacağını düşündük, amma Tanrıya şükürlər olsun ki, bütün məsələlər həll olundu".

Qərara alınıb ki, sozügedən qondarma "erməni soyqırımı" abidəsi Ermənistanda hazırlansın, sonra isə İsrailə aparılsın. A. Zinker başqa bir istiqamətdə də işləməyi planlaşdırdıqlarını qeyd edib. Ancaq o bu barədə ətraflı danışmayıb.

Məlumat üçün qeyd edək ki, İsraildə həqiqətən də belə bir abidənin ucaldılması reallaşarsa, bu, ermənilərin yəhudi dövlətində həyata keçirdikləri ilk ciddi uğur olacaq. İndiyə qədər ermənilər bu yöndə bir neçə dəfə cəhd ediblər, amma buna nail olmayıblar. Bu dəfə isə təəssüflər olsun ki, Petah Tikva şəhərinin meri rəsmən buna razılıq verib. O da məlumdur ki, İsraillə Azərbaycan arasında çox yaxın dostluq münasibətləri mövcuddur. Məlum qərar, istər-istəməz, İsrailin Azərbaycanda nüfuzunu zədələyəcək.

Bütövlükdə, ekspertlər bunu necə dəyərləndirirlər?

Məsələyə münasibət bildirən VİP-in sədr müavini Ramil Hüseynovun sözlərinə görə, İsrailin buna razılıq verməsi təəssüf doğurur: "Gərək İsrail tərəfi buna getməyəydi. Düzdür, son illər İsraillə Türkiyə arasında münasibətlər çox pisləşib. Bunun bir sıra obyektiv və subyektiv səbəbləri var. Ancaq nəzərə almaq lazımdır ki, İsrail dövləti yarananda Türkiyə müsəlman dövləti olaraq bu ölkəyə dəstək verib. Hansı ki, bütün Ərəb dünyası buna qarşı olub. Çox həssas bir dövrdə Türkiyə İsrailin yanında olub. Ən yaxın müttəfiq dövlətlərin belə tarixin hansısa mərhələsində münasibətləri soyuqlaşır. Zaman-zaman bu, tarixdə özünü göstərib. Ancaq bu heç də ona əsas vermir ki, iki ölkə münasibətlərinin pisləşməsi səbəbindən saxta "erməni genosidi"nə meydan verilsin, İsrailin hansısa şəhərində qondarma "erməni soyqırımı" abidəsi ucaldılsın. Bir neçə dəfə erməni lobbisi Knessetdə qondarma "soyqırım"ın tanıdılması ilə bağlı cəhd etdi, amma alınmayıb. İndi erməni tərəfi başqa bir yola baş vurur. Bu da, təbii ki, arzuedilən deyil. Abidə ucaldılandan sonra digər məsələlər gündəmə gələcək. Nəticədə bu xoşagəlməz tendensiya zəncirvari formada inkişaf edəcək.

***Ramil Hüseynov:** "Bu heç də ona əsas vermir ki, iki ölkə münasibətlərinin pisləşməsi səbəbindən saxta "erməni genosidi"nə meydan verilsin"*

Belə götürəndə, qondarma "erməni soyqırımı"nın təbliği İsrailin strateji maraqlarına uyğun deyil. Çünki İsrail hesab edir ki, 20-ci əsrdə baş verən ilk soyqırım Holokost soyqırımıdır. Hansı ki, faşistlər bu zaman kütləvi şəkildə yəhudiləri qırıblar. Qondarma "erməni soyqırımı" tanınsa, o zaman bununla bağlı vəziyyət dəyişəcək. Yəni Holokost ilk soyqırım statusunu itirəcək. Bu da yəhudilərin maraqlarına uyğun deyil. Ermənilərin İsraildə fəaliyyəti Azərbaycanda maraqla izlənir. Qondarma "soyqırım" abidəsi ilə bağlı məlum qərar İsrailin Azərbaycandakı nüfuzuna təsirsiz ötüşməyəcək. Bu, müxtəlif formalarda özünü göstərə bilər".

**_Vidadi ORDAHALLI_**

# Ankaranın Suriya uğurları və İrəvanı titrədən səbəb - Qarabağda status-kvonu saxlamaq mümkünsüzləşir

**Qardaş Türkiyənin "Sülh çeşməsi" əməliyyatı çərçivəsində Suriyanın şimalında həyata keçirdiyi hərbi əməliyyatlar PKK terrorçularının bölgədə mövqeyinin əhəmiyyətli dərəcədə sıxışdırılması ilə müşayiət olunur. Artıq əməliyyatın gedişində zərərsizləşdirilən YPG, PKK terrorçularının sayı 600-ə yaxınlaşır.**







Əməliyyatın gedişində Tel Abyad mahal mərkəzi də tamamilə PKK terrorçularından təmizlənib.

Məlumata görə, uğurla həyata keçirilən əməliyyatlar nəticəsində Türkiyə ordusu və Suriya Milli Ordusu sərhədin 30-35 kilometr dərinliyinə qədər irəliləyərək strateji M-4 mağıstral yoluna nəzarəti təmin edib. Ümumilikdə, Tel Abyad ve Rasulayn mahallarına bağlı 42 kənd YPG və onun bağlı olduğu PKK terrorçularından təmizlənib. Prezident Rəcəb Tayyib Ərdoğan Tel Abyad və Rasulayndan sonra Ayn El-Arab ve Hasekenin təmizlənəcəyini bildirib: "Təxminən 30-35 kilometr bir dərinliyə enəcəyik. Bunları tamamladıqdan sonra hərəkat hədəfinə çatmış olacaq". Türkiyəli ekspert Coşqun Başbuğ bildirir ki, Türkiyə Silahlı Qüvvələrindən başqa heç bir ordu belə bir əməliyyatı bu cür tez və dəqiqliklə icra edə bilməzdi:

"Əməliyyat sürətli və dəqiq şəkildə davam edir. Əməliyyat səhvsiz icra edilir, nə ölkə içərisində, nə də ölkədən kənarda yanlış hədəf vurulub. Dünyada bu tip əməliyyatları bu qədər sürətli və uğurla təşkil edə biləcək tək ordu türk ordusudur". Türkiyənin sürətlə irəliləməsi və əldə etdiyi uğurlar Qərbdə, xüsusən də ABŞ-da müəyyən təşviş yaradır. Baş verənlər həm də kürdlərlə Qərb dövlətləri arasında yeni nifaqın yaranmasına səbəb olub. Maraqlıdır ki, Türkiyənin bu uğurlarından ciddi təşviş keçirən tərəflərdən biri də Ermənistandır. Ermənistanın "1in.am" saytı bunun səbəblərini belə izah edir: "Türkiyənin Suriyanın şimalında başlatdığı hərbi əməliyyat Ermənistanda geniş ictimai rezonans doğurub. Erməni nöqteyi-nəzərincə, burada sanki elə də aktual olmayan, lakin eyni zamanda erməni mövcudluğu mövzusu və ya narahatlığı olan bir reallıq kifayət qədər çox yer tutur. Cəmiyyətin bir hissəsi soruşur: "Niyə ABŞ öz müttəfiqi olan kürdləri müdafiə etmədi?". Və bu sual kontekstində deyirlər: "Niyə Ermənistan təhlükəsizlik baxımından Rusiyaya etibar etməlidir?". Rusiya hərbi bazası olmazsa, Türkiyə günün birində Ermənistanı da işğal edə bilər.

Cəmiyyətin digər hissəsi isə sual edir:"Nə üçün ruslar Türkiyəni durdurmur, axı onlar Suriyanın suverenliyinin müdafiəçisi mövqeyindən çıxış edirlər?". Belə sual verənlər də ola bilər: "Nə üçün Tehran Ankaranın qarşısını almır, axı onun da Suriyada əhəmiyyətli maraqları və iştirakı var?". Məişət və ya internet səviyyəsində bu suallar, ola bilsin, yerindədir və ya "Bu sualların yeri bu səviyyədir" demək daha düzgün olardı. Çünki məqsəd yalnız simpatiya və ya antipatiyanın arqumentləşdirilməsi olduqda, siyasi səviyyədə bu sualların verilməsi tamamilə yersiz olur. Aydındır ki, Suriyanın şimalındakı kürd qüvvələrini hərə bir səbəblə atıb və ya tərk edib. Özünə xas olan daha açıqlıqla və necə deyərlər, üzgörənlik etməyən ritorika ilə ABŞ prezidenti Donald Tramp çıxış etdi. O, birbaşa bəyan etdi ki, kürdlər İkinci Dünya Müharibəsinədək Amerika maraqlarını yetəri qədər dəstəkləməyiblər.

Ərdoğan Suriyaya müdaxilədən öncə yalnız Trampa deyil, Putinə də zəng edib. Putinin nə dediyi məlum deyil, lakin aydındır ki, ruslar mane olmadılar. Hərəsi bir yol seçməklə, praktiki, heç kim mane olmadı. Hərənin bir motivi, səbəbi vardı. Ola bilsin, gözləyirdilər ki, kürdlər Ankaranın boğazında "qalacaq". Və ya sadəcə Suriyanın bu parçası Ankaraya çatacaq və münaribə yolu seçilib, çünki başqa yolla alması mümkün olmazdı. Ümumiyyətlə, uzun illərdir Suriyada hadisələrin praktiki olaraq öz dövriliyinə uyğun şəkildə hansı məntiqlə inkişaf etməsi həddindən artıq dumanlıdır. Bir şey aydındır ki, region uzun illər ərzində insan faciəsi mühitinə çevrilib. Lakin böyük siyasət kontekstində bu aslı durum, təbii, ən mühüm vəzifə, maraqlar uğrunda aparılan sərt mübarizədir. Burada ABŞ-ın kürdləri nə üçün qorumadığı və ya rusların nə üçün Türkiyəni durdurmadığı, o cümlədən türklərin Suriyaya necə müdaxilə ediblərsə, bir gün Ermənistana da elə müdaxilə edə biləcəkləri və yenə onları kimsənin durdurmayacağı haqqında düşünmək primitiv olur.

Axı sonunda hər bir dövlətin və xalqın risq və çağırışları, hər şeydən öncə, onun maraqlarının dəqiq ifadə olunması və beynəlxalq güc mərkəzlərinə təqdim olunması ilə şərtlənir. Və bu məsələdə hər hansı bir digər xalqın "nümunəsi", çox yaxşı və ya faciəli olmasından asılı olmayaraq, heç bir şəkildə "tipik" ola bilməz. Sadəcə, öz davranışını öyrənmək və inkişaf etdirmək məsələsi, necə deyərlər, dərslik materialı ola bilər.

Qlobal inkişaf prosesində hər hansı bir dövlətin və ya xalqın təhlükəsizliyi öz ərazisində hər hansı bir ölkənin hərbi bazasının mövcud olmasından deyil, milli maraqların və təhlükəsizliyin güc mərkəzlərinin maraqları və təhlükəsizliyi ilə nə dərəcədə uzlaşdırılmasından asılı olur. Baza varsa belə, yuxarıda göstərilən müqayisədə olduğu kimi, yenə də bu hərbi bazanın nəyə xidmət edəcəyi şəraitdən asılı olacaq. Aydındır ki, kürdlər bu uzlaşdırmaya nail ola bilməyiblər. Ermənistanın da bütövlükdə, geniş kontekstdə buna nail olduğunu demək olmaz.

Bunu şərtləndirən səbəblərdən biri də Dağlıq Qarabağ münaqişəsi ətrafında status-kvonun saxlanmasının getdikcə çətinləşməsidir. Ermənistanın strateji vəzifəsi status-kvonun saxlanması olsa da, bu mümkünsüzləşməkdə davam edir". Bununla yanaşı, portal Azərbaycanın hərbi cəhətdən güclənməsinin, Türkiyənin regionda artan mövqeyinin və Rusiyanın İrəvandan uzaqlaşmasının prosesə daha böyük sürətlə təsir etdyini də xüsusi vurğulayır.

Bu səbəbdən Türkiyənin Suriya qələbələri Ermənistanda böyük ajiotaj yaradır. Hesab edilirk ki, Yaxın Şərqdə istəklərinə nail olduqdan sonra Türkiyənin diqqəti Qafqaza daha çox yönələcək və bu da Ermənistan üçün müsbət heç nə vəd etmir.

***Nahid SALAYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Azərbaycan-Rusiya münasibətləri dərinləşdikcə Paşinyan sülh danışıqlarını aşkar pozur...

**Ermənistanda mövcud hakimiyyətin mövqeyi Dağlıq Qarabağ münaqişəsinin dinc müstəvidə həllini əngəlləyən başlıca faktor qismində çıxış etməkdə davam edir. Belə görünür ki, bu ölkə ciddi təzyiq görməyincə, konfliktin real həlli istiqamətində əməli addım atmayacaq. Hazırda Azərbaycanın diplomatik fəaliyyəti nəticəsində dünya Ermənistanı işğalçı ölkə olaraq qəbul etsə də, ona qarşı əməli addımlar atmağa hələ də tələsmir.**

Proseslərin bu səpkidə inkişafı Azərbaycanı qane etmədəyindən, Bakı məsələnin güc müstəvisində həlli variantının istənilən vaxt işə düşə biləcəyini yüksək səviyyədə bəyan edir. Bu mənada, Müdafiə Nazirliyində keçirilən son xidməti müşavirədə səslənən fikirlər və ordu qarşısında qoyulan yeni tapşırıqlar təsadüfi sayıla bilməz.

Xatırladaq ki, həmin müşavirədə müdafiə naziri, general-polkovnik Zakir Həsənov Prezident İlham Əliyevin Soçidə keçirilən "Valday" Beynəlxalq Diskussiya Klubunun 16-cı illik iclasının plenar sessiyasında çıxışı zamanı səsləndirdiyi "Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi" fikrinin Azərbaycan ordusunda böyük ruh yüksəkliyi ilə qarşılandığını və ordumuz qarşısında yeni tapşırıqlar qoyduğunu xüsusi vurğulayıb. Nazir bildirib ki, bu tapşırıqlar Azərbaycan ordusunun, xüsusilə ön xətdə yerləşən bölmələrinin döyüş qabiliyyətinin artırılması, onların daha müasir, güclü silah və hərbi texnika ilə təchizatı, şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlıq səviyyəsinin yüksəldilməsi, işğal olunmuş torpaqların azad edilməsinə yönəlmiş təlim və tədbirlərin gücləndirilmiş qaydada keçirilməsi və bu istiqamətdə bir sıra digər mühüm məsələlərin həll edilməsindən ibarətdir.

Son dövrdə cəbhə xəttində yaranmış əməliyyat şəraitini təhlil edən müdafiə naziri Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən işğal olunmuş ərazilərdə mövqelərinin möhkəmləndirilməsi məqsədilə mühəndis-istehkam işlərinin aparılması cəhdlərinin, eyni zamanda düşmənin snayper və pilotsuz uçuş aparatlarının fəaliyyətinin sərt şəkildə qarşısının alınması məqsədilə adekvat tədbirlərin görülməsini əmr edib. Ekspertlər hesab edir ki, ordumuzun qarşısında qoyulan yeni tapşırıqlar, danışıqlar masasında nəticə olmayacağı təqdirdə, hərbi əməliyyatların istənilən vaxt başalya biləcəyinin real təsdiqidir.

Azərbaycanın hərbi əməliyyatlara start verdiyi təqdirdə Ermənistanın çox böyük problemlərlə üzləşəcəyini isə düşmən ölkədə də açıq etiraf edirlər. Məsələn, ehtiyatda olan erməni polkovnik Vladimir Ovanesyan bildirir ki, indiki şəraitdə Ermənistanın Azərbaycanla hərb müstəvisində üz-üzə gəlməsi ölkəsi üçün yaxşı heç nə vəd etmir. O bildirir ki, Ermənistanın Azərbaycanla hərbi sahədə hansısa yaratmaq cəhdləri iflasa uğrayıb: " Ermənistanın yeni hakimiyyəti hərbi xərcləri artıraraq Azərbaycanla bu sahədə ayaqlaşmağa çalışır, amma baş tutmur. Belə ki, Ermənistanın 2020-ci il üçün büdcəsində hərbi xərclərin cəmi 0,8 faizlik artımı nəzərdə tutulub. Bu il ölkə hərbi xərclərə 303 milyard dram, təxminən 634 milyon dollar nəzərdə tutulmuşdusa, gələn il həmin rəqəm 305 milyard dram, yəni 638 milyon dollar təşkil edəcək. Xatırladım ki, Ermənistan Azərbaycanla müharibə ərəfəsindədir və belə vəziyyətdə hərbi büdcənin cəmi 0,8 faiz artımı yolverilməzdir. Müqayisə üçün qeyd edim ki, Azərbaycan 2020-ci ildə hərbi xərcləri 10 faiz artırmağa hazırlaşır". Polkovnik Ovanesyan əlavə edir ki, inflyasiyanı nəzərə alanda həmin 0,8 faizlik artım əslində artım deyil, hərbi xərclər inflyasiyaya görə builkinə nisbətən azalacaq. Ovanisyanın bildirdiyinə görə, Ermənistan Müdafiə Nazirliyinə ayrılan vəsaitin 75 faizi maaşlara, kommunal xərclərə və digər məcburi ödənişlərə sərf olunur. Qalan hissəsinə isə hərbi ehtiyaclar üçün nələrsə alına bilər. Üstəlik, bu zaman korrupsiyaya yol verilir, onsuz da az olan vəsait bir tərəfdən də mənimsənilir. Deməli, hərbi xərclər hesabına Ermənistan praktiki olaraq hansısa yeni texnika alışını həyata keçirmir. Bu vəziyyətdə düşmən ordusunun maddi texniki təminat sarıdan yenə Azərbaycandan dəfələrlə geri qalacağı şübhə doğurmur. Çünki Azərbaycan hər il kifayət qədər yeni və müasir hərbi texnika alışını həyata keçirir. Elə bu səbəbdəndir ki, ermənilərin ən böyük narahatlığı yenidən hərbi sahədə Azərbaycanla üz-üzə gələ bilməklə bağlıdır.

Əslində, rəsmi İrəvanın Qarabağ sülh danışıqlarını dalana dirəməsi fonunda yeni Qarabağ savaşının olması artıq qaçılmaz sayılır. Rusiyalı hərbi analitik Pavel Felqenhauer bu xüsusda bildirir: "Bəli, son zamanlar cəbhə xəttində gərginlik var. Oradakı vəziyyət bu cürdür ki, münaqişənin yenidən başlaması mümkündür, bu da bölgədəki vəziyyətin gərginləşməsinə töhfə verir". Analitik qeyd edib ki, regionda dəyişən geosiyasi vəziyyət də savaşı tətikləyən digər bir faktordur: "Söhbət ondan gedir ki, Ermənistan Moskva üçün vacibdir, lakin Türkiyə daha vacibdir, həmçinin Azərbaycan da Moskva üçün vacibdir. Moskvanın Ermənistanla tərəfdaş olması, digərləri ilə tərəfdaş olmaması məsələsinə gəldikdə isə, bu, Moskvaya əlverişli deyil, Moskva üçün maraqlı deyil. Buna görə də Moskva hər zaman balanslaşdırır, birmənalı olaraq heç vaxt İrəvanı dəstəkləmir. Lakin formal olaraq bu kimi dəstək, zəmanətlər var. Hazırda həmin balans var, lakin vacib maraqlar da var. Xüsusən də Ermənistanın indiki hakimiyyəti üzündən Rusiya Azərbaycan və Türkiyə ilə daha çox yaxınlaşır. Belə vəziyyətdə Qarabağ məsələsində İrəvanın hansısa addım atmaması fonunda Azərbaycanın savaşa başlamasına Rusiya heç bir maneə yaratmayacaq. Ermənistanın hərbi sahədə Azərbaycanla ayaqlaşmaq imkanı yoxdur. Buna onun potensialı, iqtisadiyyatı imkan vermir".

Eyni mövqe erməni politoloq Armen Badalyan tərəfindən də sərgilənir: "Ermənistanda bir il yarım əvvəl olduğu kimi, indi də sosial-iqtisadi sahədə toplanıb qalmış problemlər var və bu problemlər bir an öncə həll edilməlidir. Hakimiyyət dəyişikliyi bu mənada heç bir şeyi dəyişməyib, bu problemlər gündəmdə qalmağa davam edir". Politoloqun sözlərinə görə, ötən ilin məşhur hadisələrindən sonra baş nazir olmuş Nikol Paşinyan kriminal oliqarxiyanı "super baş nazir" sistemindən uzaqlaşdırıb və hökumət tamamilə onun maraqlarının təmin olunmasına xidmət etməyə başlayıb: "İndi artıq tam olaraq deyə bilərik ki, hökumət bir nəfərə xidmət edir. Hökumət, parlament, qanunla müstəqil şəkildə yaradılmış, lakin reallıqda tabeçilik altında olan orqanlar, Konstitusiya Məhkəməsi istisna olmaqla Ali Məhkəmə Şurası və bütün məhkəmə sistemi şəxsi hakimiyyət sisteminə daxildir. Bu sistemdən 4 institut kənarda qalır: KİV, Konstitusiya Məhkəməsi, kilsə və Qarabağ "hakimiyyəti". Hakimiyyət hazırda 2 istiqamətdə nəzərəçarpan addımlar atır: Konstitusiya Məhkəməsi və Qarabağ "hakimiyyəti". Buna avtoritar sistemin formalaşdırılması deyilir. Amma bu vəziyyət ölkəni daha zəifləmiş hala salacaq. Onda bizi daha ciddi problemlər gözləyir. Məsələn, Azərbaycanın yenidən Qarabağ savaşına start verməsi Ermənistanı əhəmiyyətli dərəcədə çökdürə və yeni məğlubiyyətlər gətirə bilər. Hadisələr indi elə bu istiqamətdə də inkişaf edir".

Məsələ ilə bağlı "armenianreport" portalı yazır ki, bütün bunlar Ermənistanın daha da təkləndiyi bir vaxtda baş verir: "Aşqabadda keçirilən MDB Dövlət Başçıları Şurasının məhdud tərkibli iclasında Azərbaycan prezidenti İlham Əliyev faşizmi dəstəklədiyinə görə Ermənistanı ciddi tənqid hədəfinə çevirdi və Moskva buna hansısa reaksiya vermədi. Əksinə, Rusiya mediası və ekspertləri bu məsələdə Bakını dəstəkləyən mövqe nümayiş etdirir. Deməli, Rusiyanın Bakı ilə yaxınlaşması həqiqətdir və Ermənistan hakimiyyəti bunun qarşısını ala bilmir. Elə buna görə Rusiyanın razılığı ilə Azərbaycanın yeni Qarabağ savaşına başlayıb istədiyi hədəfə çatması ehtimalı da yüksəlir". Məsələnin bu tərəfinə nəzər salan rusiyalı ekspert Yevgeni Mixaylov baş verənləri təbii sayır və onu da vurğulayır ki, prezident İlham Əliyevin MDB Dövlət Başçıları Şurasının zirvə toplantısında çıxışı Ermənistan hakimiyyətinin Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı davranışlarına Soçidə səsləndirdiyi fikirlərin davamıdır. Ekspertin sözlərinə görə, Azərbaycan rəhbəri Ermənistanda faşizmin qəhrəmanlıq kimi qələmə verilməsinə dair MDB ölkələrinin liderlərinin ümumi fikrini ifadə edib: "Əlbəttə, Moskva Qaregin Njdenin qəhrəmanlaşdırılması ilə bağlı öz narazılığını bildirdi, lakin analitiklərə görə, bu reaksiya İrəvanda bu cür cəhdlərin qarşısını almaq baxımından güclü deyil. Fikrimcə, Kreml İrəvanı öz strateji maraqları zonasında saxlamaq naminə ehtiyatlı davranır".

O xatırladıb ki, Aşqabadda qəbul edilən sənədlər arasında MDB ölkələrinin xalqlarına və dünya ictimaiyyətinə faşizmin qəhrəmanlıq kimi qələmə verilməsinin yolverilməzliyi də qeyd olunub: "Lakin bu muraciətə Ermənistan qoşulursa, dissonans yaranır. Necə ola bilər ki, bu müraciəti faşizmi müxtəlif bəhanələrlə təbliğ edən ölkə imzalasın: "guya, bu bizim qəhrəman Njdedir, siz ona toxunmayın". Düşünürəm ki, Ermənistanı hamımız birlikdə yerinə oturtmalıyıq". Aydındır ki, Rusiyadan Ermənistana qarşı sərgilənən belə yanaşma həm də Azərbaycanın diplomatik gedişlərinin uğurlarını təcəssüm etdirir. Belə vəziyyətdə Azərbaycanın güc yolu ilə ərazi bütövlüyünü bərpa etmə cəhdlərinə regionda maraqıl qüvvələrin, o cümlədən Rusiyanın daha anlayışlı yanaşacağı da şübhə doğrumur. Bax bu vəziyyətdə Qarabağ məsələsinin birdəfəlik Azərbaycanın istədiyi çərçivədə həlli də qaçılmaz sayılır.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Müsavatda "başqan təsdiqləmə" hadisəsinə sıravilərdən etirazlar var

**Müsavat Partiyası IX qurultayında özünə yeni başqan seçdi. Daha doğrusu, Arif Hacılını yenidən öz postuna təsdiqlədi. Qeyd edək ki, Müsavat Partiyasının başqanı uğrunda mübarizədə üç namizəd yarışıb. Bunlar hazırkı başqan Arif Hacılı, Divan üzvləri Tofiq Yaqublu və Yadigar Sadıqlı olub.**




Qurultayda keçirilən səsvermənin nəticələrinə görə, Arif Hacılı böyük səs fərqi ilə önə çıxıb. 333 etibarlı bülletendən 51-ndə Tofiq Yaqublunun, 20-ndə Yadigar Sadıqlının, 262-ndə isə Arif Hacılının adı olub. Namizədlər qalibi təbrik edib və səsvermə nəticəsində hər hansı bir saxtakarlığın olmadığını qeyd etsələr də, tanınmış sıravi müsavatçıların sosial şəbəkələrdə qurultayın nəticəsinə açıq etirazları müşahidə edilir.

Müsavatın üzvü olan jurnalist Şəmşəd Ağa sosial şəbəkədə yazdığı statusunda əldə olunan qələbəni İsa Qəmbərin qələbəsi kimi xarakterizə edib. Digər fəal müsavatçı xanım Alya Yaqublunun da bir neçə gündür prosesə etiraz əlaməti sayıla biləcək paylaşımlarına rast gəlinir. Hər iki şəxslə əlaqə saxlayıb, onların yeni başqan seçkisi ilə bağlı narazılıqlarının nədən ibarət olduğunu aydınlaşdırdıq.

Müsavat üzvü Şəmşəd Ağa "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, onu qane etməyən səbəblərdən biri də İsa Qəmbərin seçkidən əvvəl ortaya qoyduğu açıq mövqeyi olub: "Hüquqi cəhətdən ola bilərdi ki, İsa Qəmbərin belə bir addım atmasında hansısa problem olmasın. Ancaq İsa Qəmbər sıradan bir müsavatçı deyil. O, uzun müddət bu partiyaya rəhbərlik edib, Müsavatın prezidentliyə irəli sürdüyü namizədi olub. Belə bir şəxsin öz namizədini açıq elan etməsi, təbii ki, seçkinin nəticələrinə təsir etdi, hətta bunu seçki prosesinə müdaxilə kimi də dəyərləndirə bilərik. Doğrudur, seçki günü, yəni bülletenlərin sayılmasında heç bir pozuntuya rast gəlinməyib. Hamı gəlib öz istədiyi namizədə səs verib, amma ümumi proses ədalətli olmayıb. Söhbət seçkiyə qədər olan prosesdən gedir. Maraqlıdır ki, İsa Qəmbər hətta seçki günü də namizədlərin çıxışlarına müdaxilələr etdi ki, bunun da nəticələrə ciddi təsiri oldu. Digər narazılıq qurultay nümayəndələrinin seçilməsi ilə bağlıdır ki, burada da aydınlaşmalı məsələlər var. Bəzi rayon təşkilatları üzvlərinin hansı sayda olması şübhə doğurduğu halda, onların qurultaya çoxlu sayda nümayəndə göndərməsi də narazılıq yaradan faktordur. Gəncə kimi böyük şəhərdən 10 qurultay nümayəndəsi olduğu halda, Bakının hansısa rayonunun bundan sayca çox olan nümayəndə ilə qurultaya qatılması da olduqca maraqlı göründü. Bir sözlə, namizədlərə münasibətdə böyük ayrıseçkiliyə yol verildi. Alternativlərə - digər namizədlərə qarşı partiya daxilində bir il ərzində aparılan əks-təbliğat, böhtan kampaniyası, eyni zamanda, inzibati resurslardan istifadə də seçkilərin nəticələrinə ciddi təsir etdi".

***Şəmşəd Ağa:** "Bir il ərzində aparılan əks-təbliğat, böhtan kampaniyası, eyni zamanda, inzibati resurslardan istifadə də seçkilərin nəticələrinə ciddi təsir etdi"*

***Alya Yaqublu:** "...qurultay iştirakçılarını Arif Hacılının rəqiblərinə qarşı aqressiv ovqata köklədi"*

Keçmiş Divan üzvü Alya Yaqublu da qəzetimizə açıqlamasında seçki prosesində hansısa saxtakarlıqdan deyil, ümumi prosesdən narazı olduğunu bildirdi: "Proses ədalətsiz olub. Xüsusilə də İsa Qəmbərin Arif Hacılını dəstəkləməsi digər iki namizəd üçün qeyri-bərabər rəqabət mühiti yaradıb. Mən bunu adminstrativ resursdan istifadə hesab edirəm. Məmurlar üstün imkanlarından istifadə edib seçiciləri vədlə, pulla, yağ-qəndlə ələ alırlarsa, o da üstün təsir imkanlarından istifadə etməklə müsavatçıların seçimini yönləndirdi. Müsavatın lideri, partiyanın prezidentliyə namizədi və 5 il sonra da Arif Hacılıdan daha çox başqan hesab edilən İsa Qəmbər mətbuata müsahibəsində, özünün də etiraf etdiyi kimi, nüfuzundan istifadə etməməli idi. Seçkilərdə namizədlərə bərabər imkanlar yaratmaq hakimiyyətin borcudursa, partiyada ədalətli seçki mühiti yaratmaq da partiya rəhbərinin borcudur. İsa Qəmbər bu prinsipi pozdu. Hətta qurultayın gedişində də bunu aşkar nümayiş etdirməkdən çəkinmədi. Əvvəldən qəbul edilmiş reqlamentə kobud şəkildə müdaxilə etdi. Namizədləri dəstək çıxışları olmayacaqdı, onlar püşkatma ilə müəyyən olunmuş növbə üzrə danışacaqdılar - Arif Hacılı birinci, Tofiq Yaqublu ikinci, Yadigar Sadıqlı üçüncü çıxışçıydı. İsa Qəmbər moderatorluğundan sui-istifadə edərək həm Arif Hacılıya, həm də özünə aid tənqidlərə sərt reaksiya verdi, qurultay iştirakçılarını Arif Hacılının rəqiblərinə qarşı aqressiv ovqata köklədi. Belə siyasi rəqabət olmur. Tənqidləri arqumentlərlə cavablandırmaq lazımdır, hay-küylə, qara-qışqırıqla yox. Baş verənlərin demokratiya ilə yaxından-uzaqdan əlaqəsi yoxdur.

Alya Yaqublu, həmçinin, bildirdi ki, qurultay nümayəndələrinin seçilməsi prosesində də ciddi xətalar olub: "Təsəvvür edin ki, Arif Hacılının 5 illik başqanlığı dönəmində formalaşdırılmayan rayon təşkilatlarının qurulmasına qərar verilib. Qurultaya bir aydan da az bir müddət qalmış təşkilat komitələri yaradılıb və partiyaya yeni qəbul olunan üzvlər nümayəndə kimi qurultaya göndərilib. Onlar Tofiq Yaqublunu və ya Arif Hacılını necə dərindən tanıya bilərdilər? Eləcə də partiyada demokratik şəkildə rəhbərliyi tənqid edən insanlara qarşı ən sərt formada hücumlar edilib. Bu yolda olan müsavatçılara hakimiyyətlə işbirliyində olan, hətta bəzilərinə separatçı damğası vurulub".

***Məhəmmədəli QƏRİBLİ***

# Radikalların 8 oktyabr piketində yalan danışan "məcburi köçkün" - ona 2 dəfə ev verilib, uşaqları işləyir...

**"Milli Şura"nın oktyabrın 8-də keçirdiyi piketdə iştirak edən Yaşar Cəfərov adlı şəxs yataqxanada ağır şəraitdə qaldığını, ona və ailəsinə dövlət tərəfindən qayğı göstərilmədiyini demişdi və bütün müxalifyönlü internet kanalları da bu yalanı tirajlamışdılar.**



Araşdırma aparılıb və bəlli olub ki, müxalifətin Bakıda keçirdiyi piketə qatılan məcburi köçkün Yaşar Cəfərovun dövlət qayğısından uzaq olması barədə səsləndirdiyi fikirlər yalandır. Bunu Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev keçirdiyi mətbuat konfransında deyib. Onun sözlərinə görə, Zəngilan rayonundan olan həmin şəxsə dövlət tərəfindən diqqət və qayğı göstərilib: "O, Azərbaycan ictimaiyyətinə yalan söyləyib. Ailənin özünə 2 otaqlı, digər ailə üzvünə də 2 otaqlı mənzil verilib. Hazırda ailə üzvləri işləyir".

Maraqlıdır, bu adamları, xüsusilə də ahıl yaşındakı şəxsləri yalan danışmağa vadar edən səbəb nədir?

Azərbaycan Sosialist Partiyasının sədri Elşən Həsənov "Bakı-Xəbər"ə bildirdi ki, belə bir biabırçılığın ifşa olunması dərin mətləblərdən xəbər verir: "İlk baxışda həmin kişinin dediyinə inanmaq olardı. Çünki yaşlı adamdır, niyə belə ağ yalan danışsın ki? Ancaq sonra rəsmi qurum səviyyəsində onun dediklərinin hamısı təkzib edildi. Məlum oldu ki, adam tam olaraq dövlətin qayğısı altındadır. Tam səmimi deyirəm ki, heç mən dövlətdən o cür qayğı görməmişəm ki, ailəmizə iki ev verilsin. Deməli, bu qənaətə gəlirik ki, bəzi adamlar piketin, mitinqin mahiyyətini dərk etməyərək ora çıxırlar. Sosial şəbəkələrdə aparılan yanlış təbliğatın təsirinə düşüb belə bir addım atırlar. Ancaq də-

***Elşən Həsənov:** "Dediyiniz kişi isə aksiyadan istifadə edərək dövləti şantaj etmək istəyənlərin dəstəsinə aiddir"*

*"AXCP-nin növbəti aksiyalarında həmin adamlara rast gəlinməyəcək"*

diyiniz kişi isə aksiyadan istifadə edərək dövləti şantaj etmək istəyənlərin dəstəsinə aiddir. Belələri də az deyil. Onlar ajiotajdan istifadə edirlər. Kameraların önünə keçir və narazılıqlarını ifadə edirlər ki, kimsə gələcəkdə onların "neytrallaşması" barədə təşəbbüs etsin. Orada çıxış edən başqa bir xanımın dediklərinə də diqqət etdim. Çox ağır çəkili, yanağından qan daman bir xanım dedi ki, axırıncı dəfə əti kilosu 6 manat 50 qəpik olanda alıb yeyib. Hazırda ət almağa imkanı çatmır. Mən araşdırdım. Məlum oldu ki, ətin kilosu deyilən qiymətə 5 il əvvəl olub. Yəni bu məntiqlə yanaşdıqda, 5 il ət yeməyən xanım o çəkidə ola bilməzdi. Bütün bunlar sübut edir ki, heç 50 nəfərlik aksiyaya çıxanların içində belə, ideologiya daşıyıcısı olan AXCP tərəfdarı olmayıb. Belə yalançı, fürsətcil, məqsədli elektoratla nəsə etmək mümkün deyil. İstəsəniz monitorinq apara bilərsiniz. AXCP-nin növbəti aksiyalarında həmin adamlara rast gəlinməyəcək. Məhz buna görədir ki, radikallar yalnız şəhərin mərkəzində aksiya keçirməyə cəhd edirlər. İstəyirlər ki, belə təsadüfi adamların vasitəsilə şou düzəltsinlər. Bax, buna görədir ki, onlar nisbətən uzaq yerdəki aksiyalara getməkdən boyun qaçırırlar".

***Məhəmmədəli QƏRİBLİ***

**Aparıcı beynəlxalq reytinq təşkilatlarının bir-birinin ardınca verdiyi proqnozlar, hazırladığı hesabatlar Azərbaycanın iqtisadi inkişaf templərinin kifayət qədər dinamik olduğunu nümayiş etdirməklə yanaşı, həm də ölkənin bu istiqamətdə getdikcə daha böyük nailiyyətlərə imza atdığını göstərir.**

# Dünya reytinq agentliklərinin hesabatlarında Azərbaycan ən populyar ölkələrdən biri kimi...

## *Xarici investorların Azərbaycana marağı daha da artacaq*



Ölkəmiz barədə səslənən fikirlərdən belə bəlli olur ki, Azərbaycan hazırda dünyanın sabit və dayanıqlı inkişaf edən ölkələri sırasındadır. Eləcə də Cənubi Qafqazda yeganə dövlət kimi məhz Azərbaycan sabit inkişaf tempinə malikdir. Məhz belə vəziyyətdə "Moody's" reytinq agentliyinin son hesabatı yenidən xüsusi diqqət cəlb edir.

Məlumat üçün bildirək ki, hesabatda Azərbaycanın mövqeyi sabit "Ba2" səviyyəsində təsdiqlənib. Hesabatda qeyd edilir ki, maliyyə sektorundakı islahatlar əhali kütləsinin borc risqlərini azaltmaq və kredit verilməsinin bərpasına yönəlib. Böyükhəcmli xarici aktivlər üzrə xalis kreditor statusu və neft-qaz gəlirlərinin effektiv surətdə digər sektorlara yönəldilməsi hesabına daxili siyasi sabitliyin təmin olunması "Moody's" reytinq agentliyi tərəfindən ölkənin kredit etibarlığının səciyyələndirən güclü tərəflər kimi qeyd edilib. Həmçinin hesabatda qeyd olunub ki, maliyyə sektorunda aparılan islahatlar Azərbaycanın suveren kredit etibarlılığının zərbələrə, elastikliklərə davamlılığını artıra, həmçinin hökumətin borc yükünü və bank sistemi risqini aşağı sala bilər.

"Moody's" agentliyi ölkənin maliyyə sektorunda kreditlərin artmasını müsbət hal kimi qeyd edib. Agentliyin qiymətləndirməsinə əsasən, fiziki şəxs və müəssisələrə kreditlərin verilməsi 2018-ci ilin dekabrından artmaqdadır. Qeyd edək ki, "Moody's" agentliyi Azərbaycanın maliyyə sektorunda aparılan islahatlar barədə mütəmadi olaraq qiymətləndirmə aparır və agentliyin daha əvvəl açıqladığı hesabatda hökumətin problemli kreditlərin həlli istiqamətində təşəbbüsü yüksək qiymətləndirilib. Bu günlərdə isə Azərbaycan Ümumdünya İqtisadi Forumunun 2019-cu il üzrə qlobal rəqabətə davamlıq reytinqində də 11 pillə irəliləyib. Ölkəmiz Ümumdünya İqtisadi Forumunun 2019-cu il üzrə qlobal rəqabətə davamlılıq reytinqində 62,7 bal ilə 58-ci yeri tutur. Ekspertlər bildirir ki, Azərbaycanın qlobal rəqabətə davamlılıq reytinqində irəliləməsi ölkədə həyata keçirilən institusional islahatlarla bağlıdır. Qeyd edək ki, qlobal rəqabətə davamlılıq indeksi 12 göstərici əsasında tərtib olunur və ölkələri dördüncü sənaye inqilabına hazırlıq səviyyəsinin ölçüsüdür. Bundan əvvəl isə "Fitch Ratings" agentliyi ölkəmizin iqtisadiyyatındakı mövcud vəziyyəti yüksək qiymətləndirən hesabatını açıqlayıb. Qurumun son hesabatında ölkəmiz öz müsbət mövqeyini qoruyub və "BB+" qiymətləndirməsi ilə sabit inkişaf tempi nümayiş etdirib. Özü də Cənubi Qafqaz ölkələri arasında bu göstərici ilə ən yüksək reytinq məhz Azərbaycana məxsusdur. Agentliyin analizinə əsasən, beynəlxalq iqtisadi və ticarət münasibətlərində xarici balansın saxlanması və aşağı səviyyəli dövlət borcunun olması Azərbaycanın reytinqini yüksək səciyyələndirən əsas amillərdəndir. ABŞ-ın məşhur "Ceoworld" nəşri də son hesabıtında bu il investisiya yatırmaq üçün ən yaxşı ölkələri açıqlayıb. Reytinq cədvəli hazırlanarkən 67 ölkə korrupsiyanın səviyyəsi, şəxsi, ticarət və pul azadlığı, əmək, investorların qorunması, infrastruktur, vergilər, həyat keyfiyyəti, bürokratiya və texnologiya kimi 11 fərqli kateqoriyada qiymətləndirilib. Burada Azərbaycan isə 43-cü yeri tutub və Rusiya istisna olmaqla, postsovet məkanında bütün ölkələri qabaqlayıb.

Bu hesabatların siyahısını bir qədər də artırmaq mümkündür və onların hamısını birləşdirən əsas cəhət ölkəmizin iqtisadiyyatına verilən yüksək qiymətdir. Ekspertlər bütün bünların çox mühüm əhəmiyyət kəsb etdini vurğulayır. İlk növbədə o baxımdan ki, bu hal xarici investorların ölkəyə cəlb olunması üçün böyük əhəmiyyət kəsb edir. Xatırladaq ki, son 16 ildə Azərbaycan iqtisadiyyatına yatırılan 263 milyard dollarlıq investisiyanın 50 faizi xarici sərmayəçilərin payına düşür. Deməli, Azərbaycan iqtisadiyyatı ən etibarlı sistemlər sırasına daxildir. İndi yeni reytinqlər fonunda bu xarici sərmayələrin həcminin daha da artması gözlənir.

Digər tərəfdən, reytinqləri Azərbaycana dünyanın ən nüfuzlu qurumlarının verməsi də diqqətdən qaçmamalıdır. Məsələn, bir müddət əvvəl Dünya Bankının "Doing Business 2020" hesabatında Azərbaycan ən islahatçı 20 ölkə sırasına daxil edilib. Bu hesabatların hamısında son 4 il müddətində Azərbaycanın biznes mühitinin yaxşılaşdırılması, sərmayə qoyuluşu, islahatların aparılması istiqamətləri üzrə inkişaf tempi aydın müşahidə olunur. Özü də bütün bunlar dünya iqtisadiyyatının ciddi çətinkliklər yaşadığı bir vaxtda qeydə alınır. Azərbaycanda isə qarşıdakı dövr ərzində də iqtisadi inkiaşf templərinin kiyayət qədər yüksək olması gözlənir. Məsələn, təkcə gələn il üçün gəlirlər 24,4 milyard manat həcmində proqnozlaşdırılır. Bu, 2019-cu il büdcəsinin gəlirlərindən 1 milyard 316 milyon manat çoxdur. 2020-ci ildə büdcə xərcləri isə 25,6 milyard manat proqnozlaşdırılır. Bu da 2019-cu ildə olan xərclərdən 427,7 milyon manat çoxdur. Proqnoza əsasən, gələn il üçün ümumi daxili məhsulun real iqtisadi artımı 82,7 milyard manat olacaq. O cümlədən qeyri-neft, ümumi daxili məhsulunun artımı 54,2 milyard manat təşkil edəcək. Bütün bunlar, öz növbəsində, iqtisadi inkişafın mühüm uğurlarından xəbər verir və ölkəyə beynəlxalq diqqəti daha da artırır.

Ölkədə həyata keçirilən iqtisadi siyasətin və islahatların davamlılığı Azərbaycana dünya miqyasında daha yüksək qiymətin verilməsini də istisna etmir. Çünki ölkə iqtisadiyyatında aparılan islahatlar kompleks xarakter daşıyır və iqtisadiyyatın əksər parametrləri üzərində müsbət təsirini göstərir. Belə vəziyyət xarici investorların da ölkəyə marağını artırır.

***Tahir TAĞIYEV***

**Rəsmi məlumata görə, Azərbaycanda boşanmaların sayı ildən-ilə artır. Belə ki, 2014-cü ildə 84912, 2015-ci ildə 68 773, 2016-cı ildə 66771, 2017-ci ildə 62923, 2018-ci ildə 62484 nikah qeydə alınıb. Müvafiq olaraq 2014-cü ildə 12088, 2015-ci ildə 12764, 2016-cı ildə 13114, 2017-ci ildə 14514, 2018-ci ildə 14857 boşanma qeydə alınıb.**

# Alimentdən qaçanların cəzası sərtləşdirilir - həbs edilənlər, axtarışa verilənlər...



## Mehriban Zeynalova: "Əvvəllər, ümumiyyətlə, alimentin ödənilməsi məsələsi bərbad durumda idi"

2019-cu ilin 6 ayında qeydiyyat şöbələri tərəfindən 29391 nikah və 8257 boşanma halları qeydə alınıb. Ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə nikahların sayı 5,7-dən 6-ya, boşanmaların sayı isə 1,5-dən 1,7-yə qədər artıb.

Boşanmalardan ən çox əziyyət çəkənlər isə uşaqlar və qadınlar olur. Çünki boşanmalardan sonra əsas problem ödənilməli olan alimentlə bağlı yaşanır. Halbuki, aliment uşağın normal böyüməsi üçün vacibdir. Çünki ata, yaxud da ana alimenti ödəmirsə, bunun cəzasını uşaq çəkməməlidir. Hazırda alimentlə bağlı məhkəmə qərarını icra etməyənlər barədə ən sərt qərar onların həbs edilməsidir. Bu sahədə də artım tendensiyası müşahidə olunur. Ədliyyə Nazirliyindən verilən məlumata görə, 2019-cu ilin ilk 6 ayı ərzində 1020 şəxs aliment borcunu ödəməkdən qəsdən yayındığına görə inzibati qaydada həbs edilib. Bundan əlavə, həmin dövr ərzində 3198 şəxs barəsində alimentin tutulması ilə bağlı axtarış qərarı qəbul edilib. Ədliyyə Nazirliyinin Məhkəmə icraçıları baş idarəsi də hər il icrada olan işlərin təxminən 20 faizinin alimentin tutulması ilə bağlı olduğunu açıqlayıb.

Görünən odur ki, alimentin ödənilməsindən yayınmalar get-edə artır. Bu da qanunla daha sərt tədbirlərin görülməsinə şərait yaradır. Müqayisə üçün qeyd edək ki, qonşu Türkiyə və Rusiyada da alimenti ödəməkdən yayınanlara qarşı qanunla sərt tədbirlər görülür. Azərbaycanda sözügedən problemin ged-gedə böyüdüyünü nəzərə alsaq, ekspertlər yaranmış vəziyyəti necə dəyərləndirir və çıxış yolunu nədə görürlər?

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən "Təmiz Dünya" İctimai Birliyinin sədri Mehriban Zeynalovanın sözlərinə görə, əvvəllər alimenti ödəməkdən yayınmalar daha çox idi: "Beş il əvvəlki illə müqayisədə bu sahədə müəyyən aktivlik var. Məsələ ondadır ki, əvvəllər, ümumiyyətlə, alimentin ödənilməsi məsələsi bərbad durumda idi. İnzibati tədbirlərdən sonra belə hallar 5 il əvvəlki dövrə baxanda bir qədər azalıb. Çünki qanunvericilikdə məsuliyyətə cəlbetmə var, alimentin məcburi ödənilməsinin təmin edilməsi və digər addımların atılması var. Burada bir sıra problemlər var. Aliment ödəyəcək şəxsin əmək fəaliyyəti ilə əlaqədar tez-tez yerdəyişməsi, ölkəni tərk etməsi bəzi hallarda bu işlərin həllinə maneçilik törədir. Bütün hallarda, əvvəlki o hərəkətsizlik aradan qaldırılıb. Qeyd etdiyim kimi, 5 il əvvəl aliment ödəyəcək şəxslər, ümumiyyətlə, bu məsələyə soyuqqanlı yanaşırdılar. Aliment alan şəxslərin davranışlarında da ciddi problemlər var idi.

*"Bir sıra hallarda qisas zəminində şəxs bilərəkdən alimenti ödəmək istəmir"*

İndi bu məsələ tam həll edilməsə də, xeyli dəyişiklik var".

M.Zeynalovanın fikrincə, müvafiq qurumlar qarşılıqlı şəkildə bu prosesdə iştirak etməlidirlər: "Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi bu prosesdə iştirak etməlidir. Alimenti ödəyən şəxs işləmirsə, dərhal onun qeydiyyata götürülməsinə, işlə təmin olunmasına yardım etməlidir. Ədliyyə Nazirliyi ilə ƏƏSMN-nin qarşılıqlı əməkdaşlığı olmalıdır. Bu qurumlar bir-birini istiqamətləndirməlidirlər. Bir sıra hallarda qisas zəminində şəxs bilərəkdən alimenti ödəmək istəmir. Bir növ, bununla iqtisadi zorakılığa əl atır. Hesab edirəm ki, alimenti ödəməkdən imtina edənlərə cərimə kəsilməlidir. Təkcə inzibati qaydada həbs yetərli deyil. Çıxış yollarından biri budur. İkinci çıxış yolu Aliment Fondunun yaradılmasından keçir. Bu məsələnin mexanizmi hələlik sual altındadır. Ona görə ki, əksər vaxt bunu hökumət tamamilə ödəyərsə, sonra həmin adamların tapılması, fonda ödənişlərin edilməsi mexanizmi dəqiq işlənmədikcə, bununla bağlı tədbirləri tətbiq etmək çətin olur. Ancaq, ümumən, lap çətin vəziyyətdə, xəstə uşaqları olan insanlar üçün bu ödənişləri etmək olar. Yəni ödənişləri Aliment Fondu öz üzərinə götürə bilər".

***Vidadi ORDAHALLI***

**Azərbaycanda həkim resepti ilə yazılan dərman preparatlarının reklamı qadağan olunsa da, sosial şəbəkələrdə buna məhəl qoyan yoxdur. Belə ki, "Facebook" və "İnstagram" kimi populyar olan sosial şəbəkələrdə dərmanların necə gəldi, açıq-aşkar reklamı müşahidə edilir.**

# Qadağan olunmuş dərman reseptləri sosial şəbəkələri bürüyüb, çıxış yolu...



## Adil Qeybulla: "Dərmanların sosial şəbəkələrdə reklamı daha çox qanunda olan boşluqlardan irəli gəlir"

Hansı ki, hazırda "Reklam haqqında" Qanunda həkim resepti əsasında yazılan dərman preparatlarının reklamı qadağandır. Eyni zamanda, qanunvericilik qida əlavələrinin də dərman kimi reklam edilməsini qadağan edir.

Ən təhlükəlisi isə bu dərman preparatları arasında uşaqlar üçün boy artıran dərmanların reklam edilməsidir. Qeyd edək ki, reseptlə yazılan dərman preparatlarının həkim məsləhəti olmadan istifadə edilməsi çox ciddi fəsadlara yol açır. Hətta bu cür dərmanların kortəbii istifadəsi ölümə belə səbəb olur. Amma sosial şəbəkələrdə dərman preparatlarının reklamının şərh bölümündə valideynlərin aktivlik nümayiş etdirməsi bu dərmanlardan kortəbii istifadə hallarının olduğunu təsdiqləyir. Hətta bəzi valideynlər dərman preparatlarının hansı yaş həddində və dozada verilməsi barədə belə sosial şəbəkələrdə məsləhətləşmələr aparır, tövsiyələr səsləndirir. Nəzərə alsaq ki, sosial şəbəkə istifadəçilərinin sayı sürətlə artır, o zaman bunun nə qədər təhlükəli bir tendensiya olduğu ortaya çıxır. O baxımdan bunun qarşısını necə almaq olar? Ekspertlər çıxış yolunu nədə görürlər?

Məsələyə münasibət bildirən tibb elmləri doktoru, professor Adil Qeybullanın sözlərinə görə, belə halların qarşısını almaq üçün kompleks tədbirlər görülməlidir: "Əvvəla dərmanların reklam edilməsi bütün dünyada qadağan edilib. Məsələ ondadır ki, reklam korporativ marağa hesablanan bir fəaliyyət formasıdır. Dərman isə satış üçün nəzərdə tutulan bir şey deyil. Dərman yalnız müalicə məqsədi üçün lazım olan bir preparatdır. Onun da təyinat məsələsi ancaq və ancaq həkimdən asılıdır. Ona görə də dünyada dərman preparatlarının təyini icbari tibbi sığorta paketi əsasında həyata keçirilir. Xaricdə dərmanı sığortasız, reseptsiz almaq mümkün deyil. Bu yalnız bizdə var. Yəni istənilən dərmanı gedib aptekdən almaq olur. Dərmanların sosial şəbəkələrdə reklamı daha çox qanunda olan boşluqlardan irəli gəlir. Görürlər ki, "Reklam haqqında" Qanunda dərman preparatlarının konkret olaraq "Facebook" və "İnstagram"da reklamı ilə bağlı qadağa yoxdur, bu zaman yaranan boşluqdan sui-istifadə edirlər. Ona görə də qanunvericiliyə dərman preparatlarının sosial şəbəkələrdə reklamının məhdudlaşdırılması ilə bağlı məqam əlavə edilməlidir. Bir sıra hallarda məhdudlaşdırıcı qərarlar verilir, amma onun tətbiqi reallaşmır. Belə problemlər də var. Sosial şəbəkələrdə nəinki dərmanlar, eyni zamanda, həkimlər də reklam edilir. Bütün bunlar biabırçı formada həyata keçirilir. Bu da doğru deyil. Ona görə də KİV-in bu məsələyə diqqət ayırması çox vacibdir. Müvafiq qurumlar bunun qarşısının alınması istiqamətində səylərini artırmalıdırlar".

*"Bütün bunlar biabırçı formada həyata keçirilir"*

***Vidadi ORDAHALLI***

# Özəl sektorda daha bir sıçrayış - əməkhaqqı 33 faiz artıb

**Son illər əhalinin etibarlı sosial müdafiəsinin, habelə vətəndaşların yüksək rifah halının təmini istiqamətində həyata keçirilən ardıcıl tədbirlər respublikamızın milli inkişaf modelinin sosialyönümlü olduğunu bir daha təsdiqləyir.**

Ölkə iqtisadiyyatının sürətli inkişaf dinamikası və çoxşaxəliliyi uğurlarımızı şərtləndirən vacib amillərdəndir. Qeyri-neft sektorunun və sahibkarlığın inkişafı, yeni müəssisələrin işə salınması məqsədilə reallaşdırılan islahatlar ölkəmizin neftdən asılılığını azaltmaqla yanaşı, yoxsulluq səviyyəsinin minimuma enməsinə, əmək qabiliyyətli əhalinin iqtisadi fəallığının yüksəlməsinə imkan verib.

Danılmaz faktdır ki, bu gün qeyri-neft sektorunun, özəl bölmənin və sahibkarlığın inkişafı dövlətin xüsusi diqqət mərkəzindədir.

MDB iştirakçı dövlətlərinin əmək, məşğulluq və əhalinin sosial müdafiəsi üzrə Məşvərət Şurasının XXXII iclasında çıxış edən əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev bildirib ki, qeyri-rəsmi məşğulluğun qarşısının alınmasına yönələn tədbirlər nəticəsində 1 oktyabr 2019-cu il tarixinə özəl sektorda əmək müqavilələrinin sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 90 min 962 müqavilə və ya 16,5%, bu sektorda əməkhaqqı fondu isə 33,4% artıb. Onun sözlərinə görə, cari il ərzində minimum əməkhaqqının 93%, minimum pensiyanın 72%, sosial müavinət və təqaüdlərin orta hesabla 2 dəfə artırılması, 2 yeni növ təqaüdün təsis edilməsi və s. kimi tədbirlər 4 milyon 200 mindən çox vətəndaşın rifahına əhəmiyyətli sosial dəstək verdi.

Özəl sektorda əməkhaqqının artmasına münasibət bildirən iqtisadçı-ekspert Elşad Məmmədov "Bakı-Xəbər"ə açıqlamasında bunları qeyd etdi: "Özəl sektorda əməkhaqqının artması, ilk növbədə, iqtisadi potensialın artması ilə bağlıdır. Azərbaycanda əməkhaqqının

***Elşad Məmmədov:** "Qeyri-neft sahəsində inkişafın qeydə alınması özəl sektorda əməkhaqqının artmasına səbəb olur"*



ödənilməsi ilə bağlı milli iqtisadiyyatın potensialı hələ də yüksəkdir. Məlumdur ki, bu il dövlət sektorunda əməkhaqqının ciddi şəkildə artması özəl sektorda da maaş artmasının yaşanmasına səbəb oldu".

**Həmsöhbətimiz onu da vurğuladı ki, qeyri-neft sektorunda ümumdaxili məhsul daha qabaqlayıcı şəkildə artmaqdadır. Qeyri-neft sahəsində inkişafın qeydə alınması özəl sektorda əməkhaqqının artmasına səbəb olur. Bu sahədə qeydə alınan inkişaf nəticəsində əməkhaqqının həcmi daha da artacaq.**

*Günel CƏLİLOVA*

# Dünya reytinqində internetin sürətinə görə Azərbaycan geriləyib

**Azərbaycan hər il sürəti artan qlobal internet şəbəkəsi ilə ayaqlaşa bilmir. Böyük Britaniyanın "Cable" şirkəti ölkələrin ortalama internet sürətini araşdırıb. Azərbaycan internetin sürətinə görə 207 ölkə arasında 141-ci yerdədir. Hesabata görə, Azərbaycanda internetin orta yükləmə sürəti 3.1 Mbps-dir.**

*"Azərbaycanda orta internet sürəti nəinki dünyanın orta statistik göstəricilərindən, həmçinin də qonşu ölkələrdəki mövcud rəqəmlərdən aşağıdır"*

Azərbaycandakı orta internetlə 5 GB-lıq filmi endirmək üçün 3 saat 39 dəqiqə 53 saniyə tələb olunur. Hesabata görə, Azərbaycan siyahıda 6 pillə geriləyib. Ölkəmiz 2018-ci ildə 135-ci yerdə idi. Bu il bütün ölkələrin ortalama internet sürəti 11 Mbps təşkil edib. Azərbaycanda internetin sürəti (3.1 Mbps) dünya üzrə orta internet sürətindən də aşağıdır.

Dünyada orta hesabla ən sürətli internetin olduğu ölkə 85 Mbps sürətlə Tayvandır. Tayvandakı orta internet sürətilə 5 GB-lıq bir filmi endirmək üçün 8 dəqiqə tələb olunur.

Dünyada qlobal internet sürəti artdığı ərəfədə Azərbaycanda isə bu hal geriləyir. İnternet sürətinin geriləməsi beynəlxalq hesabatlarda da öz əksini tapır.

Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, Azərbaycanda internetin sürətinin geriləməsinin tək səbəbi Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin düzgün olmayan infrastruktur siyasətidir: "Qeyd etdiyim nazirlik internet infrastruktur siyasətinin genişlənməsi ilə bağlı düzgün xətt götürməyib. Bütün yük düşüb iki dövlət provayderinin üzərinə. "AzTelecom" və "Baktelecom"un mövcud resurslarına arxalansaq, bizə internet infrastrukturu qurmaq üçün 10 illər lazım olacaq. İki provayderin gücü Azərbaycanın internet infrastrukturuna tab gətirə bilmir. Özəl provayderlərin imkanlarından istifadəyə də qadağa qoyulub. Fiziki, hüquqi şəxslərə genişzolaqlı internet çəkmək üçün yeraltı kabel kanal strukturunda şərait yaradılmır. Bu səbəbdən də insanlar köhnə texnologiyadan hələ də istifadə edirlər. Bu texnologiyanın adı ADSL-dir.

Son statistikalara baxanda görmək olar ki, Azərbaycanda orta internet sürəti nəinki dünyanın orta statistik göstəricilərindən, həmçinin də qonşu ölkələrdəki mövcud rəqəmlərdən aşağıdır. Pis olan isə odur ki, orta sürətlə bağlı rəqəmlər son illərdə pisliyə doğru dəyişib. Qeyd etdiyim kimi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyində aydın bir plan yoxdur ki, ölkə boyu

***Osman Gündüz:** "AzTelecom" və "Baktelecom"un mövcud resurslarına arxalansaq, bizə internet infrastrukturu qurmaq üçün 10 illər lazım olacaq"*



genişzolaqlı internet infrastrukturu konkret illər üzrə necə inkişaf etməlidir? İnvestisiyanı kim qoymalıdır? Özəl və dövlət provayderləri yalnız rayon mərkəzlərində primitiv bir ADSL infrastruktur qurublar və onunla da kifayətləniblər. Heç kim kəndlərə getmək, müasir texnologiyalarla normal infrastruktur qurmaq istəmir. Desəm ki NRYTN heç nə etmir, doğru olmazdı. Mövcud kabel-kanal sistemi qaydaya salınsa da, əslində, hələlik özəl provayderlər ora yaxın buraxılmırlar. NRYTN bir neçə rayonda və Bakı ətrafında genişzolaqlı internetin inkişafı ilə bağlı müəyyən işlər aparır və bəzi layihələr də təsdiqlənib. Bəs ölkənin qalan 5 min kəndi necə olacaq? Əhalinin yarısından çoxu kəndlərdə yaşayır, onlara nə zaman keyfiyyətli internet çatacaq?".

*Günel CƏLİLOVA*

# "Tac Mahal MTK"nın bina sakinləri ilə mübahisəsinin detalları...

**Bakının Tbilisi prospekti, 3007-ci məhəllə 44 C ünvanında yaşayan çoxmərtəbəli binanın sakinləri həmin binanı təhvil vermiş "Tac Mahal MTK"dan ciddi narazılıqlarını ifadə ediblər. Bir neçə şikayətçi sakinin adından bizə müraciət edən Ağalar Cavadov adlı vətəndaş deyir ki, onlar, demək olar, barıt çəlləyinin üstündə yaşayırlar:**



"İnanın ki, müraciət etmədiyimiz instansiya qalmayıb. 11-12 ildir bina təhvil verilib, amma şirkət üzərinə düşən heç bir öhdəliyi yerinə yetirmir. Biz hələ də "kupça"larımızı ala bilmirik. Bütün liftlər qəzalı vəziyyətdədir. Binaya suyun verildiyi baseynlər hər il yuyulub təmizlənməli olduğu halda, 12 ildir təmizlənmir. 296 mənzilli bina böyük bir kənd deməkdir. Bunu tikib, 4 divarı verməklə deyil ki, gərək idarə etməyi də bacarasan. Cənab Prezidentin fərmanı oldu ki, çoxmənzilli binalara "kupça" verilsin, niyə bunlar həmin fərmana əməl etmək istəmirlər? Görün vəziyyət nə yerdədir ki, bütün bu binanın maddi məsul şəxsi kimi bir qarovulun adını rəsmiləşdiriblər. Bizim əlimizdə Vergilər Nazirliyindən verilən sənəd var. Həmin adam bütün günü "şlaqbaum"da durub maşınlardan 20 qəpik yığır. Bu adam necə maddi məsul şəxs ola bilər? Yüksək gərginlikli kabellərin keçdiyi şaxtalar çox bərbad vəziyyətdədir. Biz Fövqəladə Hallar Nazirliyinə müraciət etdik. Gəlib aktlaşdırdılar, şikayətimiz təsdiqini tapdı. Nə xeyri var? Heç bir addım atmırlar. Görün, bunlar nə dərəcədə özlərindən razıdırlar ki, bütün binanın lift sistemini kartla ediblər. Yəni siz kənardan mənim evimə qonaq gəlsəniz, ora qalxa bilməyəcəksiniz. Gərək mən düşüb sizi öz kartımla qaldıram. Bizim binada dializ xəstəsi olan Şirinova Tərgül yaşayır. Bir neçə gün əvvəl vəziyyəti pisləşib, təcili yardım çağırıb. Maşın bizim binaya 6 dəqiqəyə çatıb, amma xəstə xanımın mənzilinə 26 dəqiqəyə ancaq qalxa biliblər. Çünki xanım evdə təkdi deyə, kimsə düşüb kartı onlara verməyib ki, yuxarı qalxsınlar. Bu binada MTK sahiblərinin övladları yaşayır. Gedin onların da mərtəbəsinə baxın, mənim də. Onlar üçün muzey yaradılıb, digər sakinlərin mərtəbəsi isə sökülüb yerə tökülür. Bizim həyətdə qanunsuz bir bağça fəaliyyət göstərir. İqtisadiyyat Nazirliyindən sənəd almışıq ki, həmin bağçanın lisenziyası yoxdur. Buna baxmayaraq, onun üçün əlavə tikinti edib, 100 kvadrata yaxın ümumi istifadə üçün nəzərdə tutulan ərazini zəbt ediblər. Əlimizdə FHN-in aktı var ki, liftlər qəzalı vəziyyətdədir, istismarı dayanmalıdır. Buna da məhəl qoyan yoxdur. Bütün rəsmi qurumların qərarı var ki, həmin qanunsuz tikili sökülsün, yenə əməl edən yoxdur. Hər kvadratmetr üçün 30 qəpik kommunal ödəniş yığırlar. Bunun müqabilində heç bir sənəd və ya hesabat vermirlər. Zərrə qədər də olsun şəffaflıq yoxdur. Külli miqdarda pulun hara xərclən diyindən əhali xəbərsizdir. Mənim özüm də bina yeni təhvil veriləndə burada bir il komendant işləmişəm. Sonra təhvil verdim. Belə adamlarla işləmək mümkün deyil".

Sakinlər onların haqq səsini əlaqədar qurumlara çatdırmağımızı bizdən tələb etdilər.

Sözügedən binanın hazırda komendantı işləyən Xeyrulla Quliyev şikayətçilərin adından danışan Ağalar Cavadov adlı şəxsin dediklərinin həqiqət olmadığını bildirdi: "Ona sual verin görün son 78 ay ərzində 78 qəpik də olsun kommunal xidmət haqqı ödəyib? Bəs bu binanın problemləri hansı maliyyə ilə həll edilməlidir? Bütün günü lift işləyir, zibil daşınır, ağır nasoslar su vurur, bunlar məsrəf deyil? Bağçaya gəldikdə, cənab Prezidentin göstərişi var ki, çoxmənzilli binaların altında bağçalar olsun. Biz də ona uyğun davranırıq. Bağçanın olmağına 5 nəfər etiraz edirsə, 60 nəfər də İcra Hakimiyyətinə məktub göndərib, bunu təqdir edir. Deyir baseyn yuyulmur. Ondan soruşun görək, 3 il komendant işləyib, necə dəfə baseyn yudurdub? Gözünün qabağında mən ötən il baseyni təmizlədirdim. Bu da gedib ustalardan nə qədər pul aldıqlarını soruşurdu. Sonra "Azərsu"ya bu barədə şikayət etdi ki, guya mən sakinlərdən 900 manat alıb baseyn təmizlədirəm. Liftlərin kartla işləməsi bina sakinlərinin öz rahatlığı üçündür. Filtr, xlor satanlar qalxıb sakinlərin qapısını döyə bilmir. Liftlərlə bağlı isə irad "yamalara" tutulmuşdu, onu da aradan qaldırdıq. Ağaların peşəsi ancaq şikayət etməkdir. Amma adam gərək danışanda başının üstündə Allahını görsün, düz danışsın".

***Məhəmmədəli QƏRİBLİ***

# Bəzi taksi şirkətləri insan həyatı ilə oynayır - "utillik" maşınlar da taksi xidmətinə cəlb olunur

**Ətraf mühiti çirkləndirən vasitələrdən biri də avtonəqliyyatdır. Belə ki, il ərzində avtonəqliyyat 80 faizə qədər ətrafı çirkləndirir. Ekoloqların fikrincə, avtonəqliyyat vasitələrində əsasən istismar müddətini başa vurmuş köhnə avtomobillər bu payda daha üstünlük təşkil edirlər.**




## *İlqar Hüseynli: "İstismar müddəti bitən avtomobillərin taksi kimi fəaliyyət göstərməsi düzgün deyil"*

Məlumat üçün bildirək ki, bir müddət əvvəl istismar müddəti tam bitmiş, yararsız halda olan taksilərin xətdən çıxarılacağı bildirilirdi. Eyni zamanda, sovet vaxtı istehsal olunan maşınların taksi xidmətindən kənarlaşdırılacağı ilə bağlı xəbərlər yayılsa da, hələ ki, şəhərdəki mənzərə bunu deməyə əsas vermir.

Qeyd etdiyimiz kimi, istismar müddətini başa vuran taksilər hələ də sərnişinlərin ixtiyarındadır. Ucuz taksi şirkəti kimi fəaliyyət göstərən şirkətlərin, nədənsə, balansında istismr müddəti bitmiş, sınıq-salxaq avtomobillərdir. Bu hal daha çox "9933", "1188", "3399", "8855" xidmətində müşahidə olunur.

Bu günlərdə ucuz taksi xidmətindən istifadə edən sərnişin Şamil Heydərov sifariş verdiyi taksinin yararsız vəziyyətdə olduğunu müşahidə edib. O bu haqda sosial şəbəkədə məlumat paylaşıb. Qeyd olunur ki, son zamanlar taksi sahəsində vəziyyət çox acınacaqlıdır: "Əvvəllər sifariş verəndə sovet maşınlarından köhnə VAZ 2107 sifarişə gəlirdi, sonra köhnə OKA, indi isə SABİ gəlir. Özü də çox pis vəziyyətdə. Hətta oturacaqlar o gündə olur ki, özünlə gərək döşəkcə götürəsən ki, oturanda dəliyə düşməyəsən. Belə taksilərin olmaması daha yaxşıdır. Çünki burada təhlükəsizli? qorunmur. Avtomobilin qapısını əlinlə tutub mənzil başına gedirsən. Təsəvvür edin əyləc basılsa və ya manevr edilsə, maşından çölə çıxma ehtimalı 90 faiz olacaq. Belə maşınlar, ümumiyyətlə, Bakı şəhərinə buraxılmamalıdır".

Sosial sahə üzrə ekspert İlqar Hüseynli bildirdi ki, istismar müddəti bitən avtomobillərin taksi kimi fəaliyyət göstərməsi düzgün deyil: "Bu tip maşınlar şəhərin mənzərəsini pozur, ekoloji və texniki baxımdan da nasazdırlar. Ən əsası, istismar müddəti bitən avtomobillərin hərəkətdə olması insanların həyatı üçün təhlükədir. Bu formada maşınlar maşın qəbiristanlığında olmalıdır. Ümumiyyətlə, özünə hörmət edən sürücülər belə avtomobilləri idarə etməməlidirlər".

*"...şəhərin görkəmini, ekologiyanı pozmaqla yanaşı, insanların həyatı üçün təhlükə yaradırlar"*

Həmsöhbətimiz onu da vurğuladı ki, taksi şirkətləri qanunun tələblərinə riayət etmirlər: "Şirkətlərin texniki göstəricilərinə hansı formada nəzarət var? Müştəri aparılan zaman onun xəsarətsiz mənzil başına çatması ilə bağlı məsuliyyəti daşıyırlarmı? Şirkətlərə və ya taksilərə bununla bağlı irad bildirən zaman cavabları bu cür olur: "xoşun gəlmir yaxşı keyfiyyətli, qeyd olunan standartlara cavab verən xidmətdən istifadə et".

***Günel CƏLİLOVA***

# Qadın zorakılığına qarşı görülən tədbirlərə "səmərəsizlik" ittihamı...

## *Mehriban Zeynalova: "Hətta məmurlar da mental dəyərlərdən çıxış edərək məişət zorakılığına ciddi yanaşmırlar"*



*"Sosial işçilərə status verilsə, onlar belə həssas ailələrlə işləsə, psixoloqlar və hüquqşünaslar onlara pulsuz yardımlar göstərsə, təbii ki, bu sahədə olan rəqəmlər aşağı düşər"*

**Təəssüf ki, cəmiyyətimizdə ailə-məişət problemləri zəminində qadınlara qarşı zorakılıq hallarının artması müşahidə edilir. Bir neçə həftədir baş verən olaylar müstəvisində qadınlara qarşı həyata keçirilən zorakılıq halları son günlər ən çox müzakirə edilən məsələlərdəndir.**

Məlum olduğu kimi, əlaqədar qurumlar, o cümlədən də bu istiqamətdə fəaliyyət göstərən qeyri-hökumət təşkilatları vaxtaşırı olaraq paytaxtda və bölgələrdə məişət zorakılığı ilə bağlı maarifləndirici tədbirlər, seminarlar keçirdiklərini bəyan edirlər. Məişət zorakılığının artan dinamika üzrə irəliləməsi ictimaiyyətdə belə bir fikrin yaranmasına səbəb olur ki, QHT-lər və bu sahədə "iş görürəm" deyən qurumların apardıqları işlər səmərə vermir. Belə ittihamlar səslənir ki, QHT-lər rayonlara gedir, beş-on nəfəri başına toplayıb tədbir keçirir, həmin tədbirə isə ailə-məişət problemləri zəminində əziyyət çəkən qadınlar dəvət edilmir, ümumiyyətlə, onların bundan xəbərləri olmur.

Qadın zorakılığına qarşı həyata keçirilən maarifçilik tədbirləri nə kimi effekt verə bilir? Effekt verə bilmirsə, bunun səbəbləri nə ilə bağlıdır?

"Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyinin sədri Mehriban Zeynalova "Bakı-Xəbər"ə bildirdi ki, son illər qadınlara qarşı zorakılıq hallarının artmasının qarşısının alınması istiqamətində həyata keçirilən işlər effektsiz deyil. O hesab edir ki, bu effektin ən diqqətçəkən göstəricisi məişət zorakılığının işıqlandırılmasıdır. Onun sözlərinə görə, 10 il bundan əvvəl baş verən bu kimi hallarla bağlı ictimaiyyətin heç bir məlumatı yox idi, amma aparılan tədbirlər nəticəsində artıq bu məsələ ictimailəşə bilir. M.Zeynalovanin sözlərinə görə, bu sahə ilə məşğul olanların bəzi ictimaiyyət nümayəndələri tərəfindən fəaliyyətsizlikdə ittiham edilməsi doğru deyil. O qeyd etdi ki, ittiham etmək asandır, lakin iş görənin gördüyü işi qiymətləndirmək çətindir. M.Zeynalovanın dediyinə görə, cəmiyyətdə məişət zorakılığının artmasının və onun qarşısının maarifləndirici tədbirlərlə alına bilməməsinin günahkarı nə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsidir, nə də QHT-lərdir: "Birincisi, QHT-lərin o qədər maliyyə imkanları yoxdur ki, rayonları gəzib maarifləndirici tədbirlər keçirsinlər. Bu istiqamətdə iş görmək üçün donor da, kifayət qədər maliyyə dəstəyi də yoxdur. İkincisi, razıyam, məişət zorakılığı elə bir problemdir ki, oradan maliyyə də gözləmək lazım deyil, bu problemin aradan qaldırılmasında hər kəs iştirakçıya çevrilməlidir. Məişət zorakılığının qarşısının alınmamasını ya Daxili İşlər Nazirliyinin, ya Dövlət Komitəsinin, ya da QHT-lərin üstünə atırlar. Söhbət ondan gedir ki, məişət zorakılığının aradan qaldırılması bir-iki dövlət qurumunun və QHT-lərin işi deyil, bu bütün qurumların, cəmiyyətin işidir. Burada Milli Məclisdə qanunvericiliyin təkmilləşməsindən tutmuş, Nazirlər Kabineti tərəfindən yeni qərarların qəbul edilməsinə, Səhiyyə, eləcə də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə qədər bütün qurumlar birləşməlidir. Əgər vətəndaş maariflənirsə və onun pulsuz psixoloji, hüquqi dəstək almaq üçün getməyə yeri yoxdursa, yəni bununla bağlı mərkəz fəaliyyət göstərmirsə, o halda aparılan maarifçilik işlərinin effekti olmayacaq. Təbii ki, bu halda məişət zorakılığı genişlənəcək. Bu məsələnin həyata keçirilməsi mexanizmi istiqamətləndirmə formasında olmalıdır. Yəni hər bir qurum öz işini görməlidir. Əgər rayonlarda kifayət qədər günərzi qadın böhran mərkəzi açılarsa və onlar sosial işçilərlə təmin olunarsa, bunun müsbət effekti olar. Bilirsiniz, sosial işçilər məsələsi gündəmdə olan bir məsələdir ki, hələ də ölkəmizdə sosial işçilərə status verilməyib. Daxili İşlər Nazirliyində qeydiyyatda olan ailələr var ki, həmin ailələrə sosial işçilər təhkim olunmalı və onlarla iş aparılmalıdır. Sosial işçilərə status verilsə, onlar belə həssas ailələrlə işləsə, psixoloqlar və hüquqşünaslar onlara pulsuz yardımlar göstərsə, təbii ki, bu sahədə olan rəqəmlər aşağı düşər".

M.Zeynalova bildirdi ki, boşanma dövründə ailələrin pulsuz sosial işçi və psixoloqla təmin edilməsi də vacib məsələdir, onlar həmin 3 ay müddətində tərəflərlə söhbətlər edər, onlara yardımlar göstərər, nəticədə isə hazırda baş verənlər təkrarlanmaz. "Azərbaycanda bu mexanizmlər formalaşmadıqca və bu sahədə bütün qurumlar kompleks işləmədikcə, sözsüz ki, ittihamlar da olacaq. Günərzi böhran mərkəzləri yaradılsın və burada statuslu sosail işçilər çalışsın, onlar problemli ailələrə təhkim edilsinlər ki, münaqişələr baş verməsin. Onlar ailələrdə reabilitasiya işini həyata keçirsinlər.

Bilirsiniz, bu sahədə çalışmayan adamlar görülən işlər barədə hansısa fikri söyləyəndə, belə xaos yaranır, yanlış rəy formalaşır ki, QHT-lər iş görmür, pul yeyir. Əslində, belə deyil. Dövlət Komitəsinin də işi bu sahədə dövlət siyasətini həyata keçirmək, bu problemləri araşdırmaqdır. O, həmçinin, problemin baş verdiyi rayonlarla bağlı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyini məlumatlandırmalıdır ki, oraya sosial işçi göndərsin. Yəni mexanizm bu cür olmalıdır. İstanbul konvensiyası qəbul olunsa, bu mexanizmlər artıq məcburi şəkildə tətbiq olunacaq. Amma bu gün hələ təəssüf ki, cəmiyyətdə məişət zorakılığına barmaqarası baxılır. Hətta məmurlar da mental dəyərlərdən çıxış edərək məişət zorakılığına ciddi yanaşmırlar" - deyə M.Zeynalova qeyd etdi.

***İradə SARIYEVA***

№ 183 (4081) ■ Qiymәti: 40 qәpik

# BAKI XƏBƏR

15 OKTYABR 2019-cu il

www.baki-xeber.com

## Elan

Şәki rayonu, Suçma kәnd sakini Əhmәdova Qüdrәt Bayram qızının adına JN-026F seriyalı torpağın (pay torpaq) mülkiyyәtә verilmәsinә dair dövlәt aktı itdiyindәn etibarsız sayılır.

Şәki şәhәr sakini Cәbrayılov Şahin Vahid oğlunun adına verilmiş hәrbi bilet itdiyindәn etibarsız hesab edilir.

Şәki rayonu, Şәki kәnd sakini Əsgәrov Nurlan Elxan oğlunun adına verilmiş әmәk kitabçası itdiyi üçün etibarsız sayılır.

Cavadov Süleyman Fәtәli oğlunun adına, Abşeron rayonu, Maştağa, Zәfәran sovxozunda yerlәşәn torpaq sahәsinin sәrәncamı itdiyi üçün etibarsız sayılır.

Mustafayev Şahin Ədalәt oğlunun adına, Abşeron rayonu, Maştağa, Zәfәran sovxozunda yerlәşәn torpaq sahәsinin sәrәncamı itdiyi üçün etibarsız sayılır.

Mәmmәdov Zamin Faxrәt oğlunun adına, Bakı şәhәri, Suraxanı rayonu, Zığ qәsәbәsi, Əmircan-Hövsan yolunun sağ tәrәfindә yerlәşәn 600 kv.m. torpaq sahәsinin mülkiyyәtә verilmәsinә dair şәhadәtnamә (JN-26916 H) itdiyi üçün etibarsız sayılır.

İsmayılova Hәqiqәt Qara qızının adına, Bakı şәhәri, Suraxanı rayonu, Zığ qәsәbәsi, Əmircan-Hövsan yolunun sağ tәrәfindә yerlәşәn 600 kv.m. torpaq sahәsinin mülkiyyәtә verilmәsinә dair şәhadәtnamә (JN-26942 H) itdiyi üçün etibarsız sayılır.

İsmayılov Kәnan İnqilab oğlunun adına, Bakı şәhәri, Suraxanı rayonu, Zığ qәsәbәsi, Əmircan-Hövsan yolunun sağ tәrәfindә yerlәşәn 600 kv.m. torpaq sahәsinin mülkiyyәtә verilmәsinә dair şәhadәtnamә (JN-26868 H) itdiyi üçün etibarsız sayılır.

5 nömrәli Bakı Peşә Mәktәbinin VÖEN (1200095471) şәhadәtnamәsi itdiyi üçün etibarsız sayılır.

Mәmmәdov Aqil Kamandar oğluna mәxsus, Bakı şәhәri, Nәrimanov rayonu, Z.Bünyadov (keçmiş Karl Marks) küçәsi, ev №23, mәnzil №26 ünvanının qeydiyyat vәsiqәsi (çıxarış) itdiyi üçün etibarsız sayılır.

Fәrziliyev Kamran Oqtay oğluna Bakı Dövlәt Universiteti tәrәfindәn verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır.

Hüseynov Cümşüd Mәsim oğluna, Bakı şәhәri, Nәsimi rayonu, 4-cü mikrorayon, 20 Yanvar küçәsi, ev №21 B, mәnzil №106 ünvanına verilmiş qeydiyyat vәsiqәsi (kupça) itdiyi üçün etibarsız sayılır.

Azәrbaycan Milli Konservatoriyası tәrәfindәn Hüseynov Bәxtiyar Qiyabi oğluna verilmiş qiymәt kitabçası itdiyi üçün etibarsız sayılır (TB №928).

(Willi - F) Vili - F MMG-nin VÖEN, Nizamnamәsi, Dövlәt Reyestrindәn çıxarışı vә bütün sәnәdlәr itdiyi üçün etibarsız sayılır.

İsayeva Alidә İsa qızının adına, Bakı şәhәri, Nizami rayonu, Q.Qarayev küçәsi, ev №93, mәnzil 12 ünvanının qeydiyyat vәsiqәsi vә digәr sәnәdlәri itdiyi üçün etibarsız sayılır.

Rzazadә Fatma Əbdülhüseyn qızına Bakı Dövlәt Universiteti tәrәfindәn verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır.

Bağırov Mehman Əhmәd oğlunun adına, Bakı şәhәri, Xәzәr rayonu, Binә qәsәbәsi, Hicran Hasilov küçәsi, B - 2000 /109 mәnzil 1 ünvanına verilmiş çıxarış (kupça) itdiyi üçün etibarsız sayılır.

Hәsәnova Aytac Teymur qızına Bakı Dövlәt Universiteti tәrәfindәn verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır.

## Dәri ekran ixtira olunub

**Tokio Universitetinin alimlәri ürәk-damar xәstәliklәrinin effektiv monitorinqini aparmağa imkan verәcәk ultranazik dәri ekran icad ediblәr.**



"İctnews.az" bildirir ki, mәlumata görә, ürәk-damar xәstәliklәri bütün dünyada ölüm hallarının başlıca sәbәbi olaraq qalır. Bildirilir ki, dәri displey insana öz sağlamlığı haqqında operativ mәlumat әldә etmәyә imkan verir. Çox kiçik işıq diodlarından ibarәt matrisa nәbz vә digәr göstәricilәri göstәrә bilir. Bir millimetr qalınlığında qurğu istifadәçi üçün narahatlıq yaratmır. Bundan әlavә, әlә yapışdırılan ekran ovucu sıxmağa vә açmağa mane olmur vә hәrәkәt zamanı işlәmәkdә davam edir. Yaponiya alimlәrinin fikrincә, texnologiyanın kütlәvi istehsalına başlamaq üçün çoxlu vәsait tәlәb olunmayacaq, qurğudan istifadә isә insanların gündәlik hәyatını daha da yaxşılaşdırmağa imkan verәcәk.

## "Azercell" bölgә ali tәhsil müәssisәlәrinin tәlәbәlәri ilә görüşüb

**Ölkәdә rәqabәtqabiliyyәtli kadrların hazırlanmasına daim dәstәk olan "Azercell Telekom" MMC öz fәaliyyәtini bu istiqamәtdә uğurla davam etdirir.**



Bu dәfә sentyabr ayının 16-dan start verilәn Tәlәbә Tәqaüdü Proqramında hәr bir tәlәbәyә iştirak üçün fürsәt yaratmaq mәqsәdilә "Azercell" ölkәmizin bölgәlәrindә yerlәşәn bütün ali tәhsil müәssisәlәrini ziyarәt edib. "Azercell"in İnsan Kapitalının İdarә edilmәsi departamentinin mütәxәssislәri Gәncә, Naxçıvan, Mingәçevir vә Lәnkәran şәhәrlәrindә ali tәhsil alan tәlәbәlәrlә görüşәrәk, onlara әmәk bazarında mövcud tendensiyalar vә istiqamәtlәr, şirkәtdә karyera qurmaq imkanları vә Tәlәbә Tәqaüdü Proqramı haqqında geniş mәlumat veriblәr. Görüş zamanı tәlәbәlәrin proqramda iştirak şәrtlәri, seçim mәrhәlәlәri vә qeydiyyat qaydası barәdә çoxsaylı sualları da cavablandırılıb.

Qeyd edәk ki, 2020-ci il üçün elan edilmiş Tәlәbә Tәqaüdü Proqramı çәrçivәsindә son iki kurs tәlәbәlәri akademik bilikləri, dünyagörüşü, әmәk vә tәhsilә hәvәsi vә digәr meyarlar әsasında qiymәtlәndirilәcәklәr. Qaliblәr isә tәhsil ilinin sonunadәk "Azercell"dәn 200 AZN mәblәğindә aylıq tәqaüd almaqla yanaşı, hәm dә telekommunikasiya sahәsindә mövcud biliklәrini artırmaq, rәqәmsal dünyanın әn son trendlәri ilә yaxından tanış olmaq, şirkәtin korporativ tәdbirlәrinә dәvәt almaq, müxtәlif tәlimlәrdә iştirak etmәk vә tәcrübә kәçmәk üçün әvәzolunmaz şans qazanacaqlar.

Xatırladaq ki, "Azercell" Tәlәbә Tәqaüdü 2020-dә iştirak üçün müraciәtlәrin qәbulu artıq açıqdır vә son qәbul tarixi oktyabr ayının 16-dır. Tәqaüd proqramı üzrә müraciәt etmәk üçün müvafiq elektron müraciәt әrizәsi doldurulduqdan sonra, tәlәbә bileti vә qiymәt kitabçasının (transkript) skan versiyaları ilә birlikdә telebe@azercell.come-mail ünvanına göndәrilmәlidir. Yeni dәrs ilindә "Azercell" tәqaüdçüsü adını qazanmaq fürsәtini qaçırma!

Əlavә mәlumat üçün https://www.azercell.com/az/company/career/development_oportunities/bursary2020/ sәhifәsinә daxil olun. Daha әtraflı mәlumat üçün news@mcs.az ünvanına müraciәt edә bilәrsiniz.





**Qoç** - Günün ilk yarısında bütün işlәri istәdiyiniz kimi yerinә yetirmәk mümkün deyil. Yaxın әtrafınızdakı insanlardan bir neçәsinin müqavimәtini hiss edәcәksiniz. Tәnbәllik etmәyin, fәal olun.



**Buğa** - Müstәqil fәaliyyәtin sәmәrәliliyi az olacaq. Yaxın әtrafınızdakı insanlarda özünüzlә bağlı maksimal tәәssürat yaratmağa can atmayın. Sәylәrinizin uğurlu olub-olmayacağı әhvalınıza vә fәaliyyәtinizә tәsir edәcәk.



**Əkizlәr** - Günün ilk yarısı görә bilәcәyiniz işlәrdәn dәfәlәrlә artıq problemlәr var. Onları hәll etmәk gәrәkdir. Əsas planlarınıza vә mәqsәdlәrinizә manеәlәr yarada bilәcәk mövzuya qarışmayın.



**Xәrçәng** - Qarışıq, hadisәlәrlә zәngin zamandır. Qarşınıza qoyduğunuz mәqsәdә çatmaq üçün fәallığınızı yaxşı planlaşdırın. Danışıqlar vә söhbәtlәr çox olacaq. Problemlәrin hәllini primitivlәşdirmәyin.



**Şir** - Fikrinizi ikinci dәrәcәli mәsәlәlәrә yayındırmayın. Ən mühüm işlәri seçәrәk onları reallaşdırmağa başlayın. Bütün resurslardan yararlanın. Retroqrad insanların gәlirlәrinizә mәnfi tәsiri olacaq. Diqqәtli davranın.



**Qız** - Günün ilk yarısında maraqlarınız vә qayğılarınızın sayı artacaq. Sakit zaman deyil. Çox adama lazımsınız. Kimәsә yardım etmәli olsanız, minnәtdarlıq gözlәmәyin. İndi hamı öz işi ilә mәşğuldur.



**Tәrәzi** - Günün ilk yarısı ikinci dәrәcәli işlәrә çox vaxt ayırmayın. Uğur qazanmaq üçün bütün gәrәkli mövqеlәri vә mәqamları bir daha yoxlayın. İdeyalarınızı daha sәbatlı vә praqmat edin.



**Əqrәb** - Şәrait qarışıq, laübәlidir. Bir tәrәfdәn sizi maraqlandıran mövzularda novasiyalar vә yeniliklәr çox olsa da, digәr tәrәfdәn mәhdudiyyәtlәrin sәrt çәrçivәlәrini hiss edәcәksiniz. İşdә rәhbәrliyin tapşırıqları artacaq.



**Oxatan** - Tәcili hәll tәlәb edәn mәsәlәlәr vә kiçik qayğıların sayı arta bilәr. Ümumi ab-hava pis deyil. Görüşlәrә ünsiyyәtin mәzmunlu olmasına çalışın. Fәaliyyәt arealında qayda yaradın, sistemlәşdirmәyә vә tәşkilati tәdbirlәrә başlayın.



**Oğlaq** - Günün ilk yarısında gәrginlik, әhvalın heç bir motivasiya olmadan dәyişmәsi, problemlәr istisna deyil. Günün ikinci yarısında әldә etmәk istәdiyiniz mәlumata can atın.



**Dolça** - Günün ilk saatlarından etibarәn gәrginlik azalacaq. Bir qәdәr nәfәs almaq, çatdığınız mövqеlәri möhkәmlәndirmәk olar. Cari işlәri tәlәsmәdәn araşdırın. Qarşıda duran mәqsәdlәri nәzәrdәn keçirin.



**Balıqlar** - Maraqlarınızın tәminatı üçün qәtiyyәtli vә iradәli olun. Münasibәtlәrin, әmәkdaşlığın perspektivlәrini müzakirә edin. İşlәri paylaşdırın. Birgә fәaliyyәtә ehtiyac var. İnformasiya mәkanı rәqabәt mübarizәsi yerinә çevrilә bilәr.

*Qoroskop Rusiya vә Qәrb astroloqlarının proqnozları әsasında hazırlanıb*

## Ağlınızı oxuyaraq sizi sakitlәşdirәn 150 dollarlıq cihaz

**İnsanların dincәlmәk vә ya meditasiya etmәk üçün istifadә etdiklәri bir çox fәrqli metod var. MUSE: Brain Sensing Headband cihaz beyin dalğalarının real vaxtda analizini edәrәk, meditasiyaya sәrf olunan vaxtı әn mәhsuldar şәkildә keçirmәyә kömәk edir.**

"Techland.az" bildirir ki, beyin dalğalarının real zamanlı tәhlilindәn istifadә edәrәk meditasiya sәyahәtinizdә rәhbәrlik edәn cihaz, iOS (11.0 vә daha yuxarı) vә Android (5.0 vә yuxarı) platformasındakı Muse tәtbiqi ilә birlәşir. Tәtbiqdә yağışdan dәniz dalğasına, quşlardan kosmik sәslәrә qәdәr bir çox sәs variantı var. MUSE: Brain Sensing Headband meditasiya edәrkәn ağlınızın sakitlik sәviyyәsini ölçür vә bu mәlumatları hava şәraitinә çevirir. Cihaz real vaxt rejimindә mәlumatların monitorinqini dәstәklәyir vә Bluetooth 4.0 simsiz bağlantısını dәstәklәyir. Bu maraqlı meditasiya üsulundan istifadә etmәk istәyәn insanlar $ 150-dan keçmәk mәcburiyyәtindәdirlәr.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şәhәri, Mәtbuat pr. 529-cu mәhәllә, 6-cı mәrtәbә*

Tel-faks: 510-87-40; 510-87-38; 510-87-39

e-mail: azer22@mail.ru

Reyestr № 0106-P219-45846

Qәzet hәftәdә 5 dәfә çıxır. (Bazar vә bazar ertәsindәn başqa). «BZ»-dә çap olunur.

Sifariş: №2514 Tiraj: 3050

Qәzetdә «Olaylar» vә «Trend» informasiya agentliklәrinin materiallarından istifadә edilir.

Reklam mәtninә görә qәzet mәsuliyyәt daşımır.